AZERBAIJAN
# Olimpiya dünyası
www.olimpiyadunyası.az
Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti
№ 4 (1404), 25 - 28 yanvar 2019-cu il
Qəzet 2001-ci ildən çıxır.

## III Avropa Oyunlarının ev sahibinin adı yayda açıqlanacaq

EUROPEAN OLYMPIC COMMITTEES

Avropa Olimpiya Komitəsi (AOK) təşkilata üzv olan bütün Olimpiya komitələrinə məktub göndərərək III Avropa Oyunlarının 2023-cü ildə keçirilməsi üçün tenderdə iştirak etməyə çağırıb.

Artıq Polşa oyunlara ev sahibliyi etmək üçün Katovitse şəhərinin namizədliyini irəli sürüb. Polşa Olimpiya Komitəsinin vitse-prezidenti Tomaş Poreba və Katovitse merinin müavini Marius Skiba yanvarın 18-də AOK-un qərargahı olan İtaliyanın paytaxtı Romaya bu təkliflə gedib.

Qeyd olunub ki, bu ilin əvvəlində qılıncoynatma üzrə Dünya kuboku yarışlarına ev sahibliyi etmiş Katovitse digər Polşa şəhəri ilə də birgə bu yarışı keçirə bilər. Həmçinin paytaxt Varşavanın cənubunda 290 km aralıda olan Katovitsenin bu il Ümumdünya Anti-Dopinq Agentliyinin prezident seçkilərinin keçiriləcəyi konfransa ev sahibliyi etməsi şəhərin əhəmiyyətini artırıb.

Həmçinin AOK-un italiyalı baş katibi Rafael Paqnozzi bildirib ki, başqa bir neçə Avropa ölkəsindən də onlara müraciət olub. AOK-un sloveniyalı prezidenti Janez Koçijançiç isə yaxşı maliyyə imkanları vəd edən təkliflər aldığını bu ayın əvvəllərində qeyd edib.

Müraciət üçün son tarix isə fevralın 28-dəkdir. Təşkilatçı ölkənin adı iyunun 20-də açıqlanacaq. Qeyd edək ki, ilk Avropa Oyunlarına 2015-ci ildə Azərbaycan ev sahibliyi edib. II Avropa Oyunları isə bu il Belarusun paytaxtı Minskdə iyunun 21-dən 30-dək keçiriləcək.



Yanvarın 24-də İsveçrənin Lozanna şəhərində Avropa Olimpiya Komitəsinin (AOK) İcraiyyə Komitəsinin iclası öz işinə başlayıb.

Ölkəmizi iclasda AOK İcraiyyə Komitəsinin üzvü və Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə təmsil edir.

İki gün davam edən tədbir çərçivəsində AOK-un prezidenti Janez Koçijançiç, baş katib Rafael Paqnozzi adıçəkilən təşkilatın hesabatı ilə çıxış edəcəklər. Bundan başqa Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Baxın iclasda iştirakı gözlənilir. Qeyd edək ki, Bakı-2019 Avropa Gənclər Olimpiya Festivalı və Minsk-2019 ikinci Avropa Oyunları gündəlikdə olan məsələlər sırasındadır.

## MOK-un vitse-prezidenti Lozannada keçirilən iclasda iştirak edir

## Voleybolçularımızın Avro-2019-dakı rəqibləri müəyyənləşdi

Yanvarın 23-də İstanbulda qadın voleybolçulardan ibarət komandalar arasında Avropa çempionatının püşkü atılıb. Azərbaycan millisi püşkatma zamanı üçüncü səbətdə yer alıb. Azərbaycan ilə yanaşı, Belarus, Ukrayna və Fransa yığmaları da bu səbətdə qərarlaşıblar.

Birinci səbətdə Serbiya, Hollandiya, İtaliya, Rusiya, ikinci səbətdə Almaniya, Belçika, Bolqarıstan, Xorvatiya, dördüncü səbətdə Rumıniya, Finlandiya, İspaniya, Sloveniya, beşinci səbətdə isə Portuqaliya, İsveçrə, Yunanıstan və Estoniya yığmaları yer alıblar.

Püşkün nəticəsinə görə, millimiz "C" qrupunda Macarıstan, Hollandiya, Xorvatiya, Rumıniya və Estoniya yığmaları ilə birgə mübarizə aparacaq. Bu qrupun oyunlarına Budapeşt ev sahibliyi edəcək.

Avropa çempionatı avqustun 23-dən sentyabrın 8-dək Türkiyə, Polşa, Macarıstan və Slovakiyada təşkil olunacaq.

Qeyd edək ki, 2017-ci il Avropa çempionatına Azərbaycan və Gürcüstan birgə ev sahibliyi edib.

## *Cüdoçularımız Təl-Əviv Qran-Prisində mübarizəyə başladılar*

Təl-Əvivdə cüdo üzrə Qran-Pri yarışına start verilib. Qran-Pri yarışlarında ölkəmizi 18 idmançı təmsil edir. Kişilər arasında yarışlarda millimizin heyətində Orxan Səfərov (66 kq), Rüstəm Orucov, Hidayət Heydərov (hər ikisi 73 kq), Murad Fətiyev (81 kq), Məmmədəli Mehdiyev (90 kq), Elmar Qasımov (100 kq), Uşanqi Kokauri (100 kq-dan yuxarı) kimi təcrübəli cüdoçular da yer alıb.

Qızların turnirində isə Leyla Əliyeva (48 kq), Gültac Məmmədəliyeva, Buyankşiq Purevsuren (hər ikisi 52 kq), İçinkorloo Munxtsedev (57 kq) və İrina Kindzerska (78 kq-dan yuxarı) qüvvələrini sınayırlar. Tokio-2020-yə lisenziya xalları verən turnirə yanvarın 26-da yekun vurulacaq.

## *Olimpizm*

### Minsk-2019 ilin ən mühüm idman layihəsi adı uğrunda səsvermədə iştirak edir

"2019-cu il II Avropa Oyunları" layihəsi "2019-cu ilin ən mühüm idman layihəsi" adı uğrunda səsvermədə iştirak edir.

Sorğu iri beynəlxalq idman layihələrinin işıqlandırılması üzrə ixtisaslaşmış "Inside the games" populyar idman resursu tərəfindən təşkil edilib. Minsk-2019-un rəqibləri arasında Rabat-2019 (Afrika oyunları), Lima-2019 (Panamerika oyunları) və Apia-2019 (Sakit okean oyunları) layihələri də var. Səsvermə bu gün başa çatacaq. Xatırladaq ki, II Avropa Oyunları 2019-cu il iyunun 21-dən 30-dək Minskin 12 idman obyektində keçiriləcək. Burada 50 ölkəni təmsil edən 4000 atlet 15 idman növü üzrə 200 dəst medal uğrunda mübarizə aparacaq. 10 idman növü üzrə yarışlar isə Tokioda keçiriləcək XXXII Olimpiya Oyunlarının təsnifat mərhələsi olacaq.

2015-ci ildə Bakıda keçirilmiş I Avropa Oyunlarında Azərbaycan yığması medalların sayına görə ikinci yeri tutub.

### İkinci Avropa Oyunlarının boks və velosiped yarışlarına hazırlıq yüksək qiymətləndirilib

Avropa Boks Konfederasiyasının (EUBC) texniki nümayəndəsi Sidi Məhəmməd Mustasan II Avropa Oyunlarının boks yarışlarına hazırlığı yüksək qiymətləndirib. Qurumun texniki nümayəndəsi bu barədə Belarus paytaxtına səfərinin nəticələrini şərh edərkən məlumat verib. O, boks yarışlarının keçiriləcəyi arenanın həm idmançılar, həm də tamaşaçılar üçün rahatlığı ilə fərqləndiyini bildirib.

Qeyd edib ki, bu məkan həm irimiqyaslı yarışların, həm də məşqlərin təşkili üçün bütün standartlara cavab verir. EUBC nümayəndəsi II Avropa Oyunlarının boks yarışlarının yüksək səviyyədə keçiriləcəyinə əmin olduğunu bildirib.

MINSK 2019 2nd EUROPEAN GAMES

II Avropa Oyunlarında boks üzrə yarışlarda 15 dəst medal uğrunda qadın və kişilər mübarizə aparacaqlar. Kişilər arasında ən güclü boksçular 10 çəki dərəcəsində müəyyən olunacaq (49 kq, 52 kq, 56 kq, 60 kq, 64 kq, 69 kq, 75 kq, 81 kq, 91 kq-a qədər və 91 kq-dan yuxarı). Qadınlar isə 5 çəki dərəcəsində mübarizə aparacaqlar (51 kq, 57 kq, 60 kq, 69 kq, 75 kq). Oyunlarda ümumilikdə, 316 boksçu (onlardan 256-nı kişilər, 60-nı isə qadınlar təşkil edir) iştirak edəcək.

Xatırladaq ki, ilk Avropa Oyunları 2015-ci ildə Bakıda keçirilib. On beş çəki dərəcəsində mübarizə aparan boksçuların yarışında yığmamız 11 medal qazanıb. Hesabında 6 qızıl, 1 gümüş və 4 bürünc mükafat olan komandamız bu göstəricidə hamını qabaqlayıb.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

## Gənclərin mənəvi tərbiyəsində idman klublarının da böyük rolu var

Səh. 3

əziz OXUCULAR!
Olimpiya dünyası-na 2019-cu il üçün abunə yazılışı davam edir.
Abunə yazılışının
3 aylıq qiyməti - 6 manat (1 nüsxə)
6 aylıq qiyməti - 12 manat (1 nüsxə)
12 aylıq qiyməti - 24 manat (1 nüsxə)
Abunə yazılmaq üçün
"Azərmətbuatyayımı" İB-ə (tel: 440 39 83)
"Qaya" (tel: 565 67 13)
"Səma" (tel: 596 22 97)
"City Press" (tel: 437 28 10)
"Kaspi" (tel: 432 39 55)
mətbuat yayımı firmalarına müraciət edə bilərsiniz
"Olimpiya dünyası" - idmanımızın aynası

Qran-Pri yarışı ilə bağlı maraqlı təşəbbüs Səh. 2
*Fondun 2018-ci ildəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib* Səh. 2
Karateçilərimiz "Paris Open" turnirində Səh. 2
*Qılıncoynadanımız Bəhreyndə gümüş medal qazanıb* Səh. 4
Planeti ovsunlayan idman növləri və onun sadiq azarkeşləri Səh. 5
*"Neftçi" və "Bursaspor" klubları arasında əməkdaşlıq müqaviləsi imzalanıb* Səh. 7

# *Fondun 2018-ci ildəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib*



Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib. Fondun Müşahidə Şurasının sədri Həsən Həsənov iclası giriş sözü ilə açaraq gündəlikdəki məsələlər barədə məlumat verib:

1. Fondun 2018-ci ilin yekunlarına həsr olunmuş hesabatının müzakirəsi və təsdiqi;
2. Fondun 2019-cu il üçün Tədbirlər Planının müzakirəsi və təsdiqi;
3. Fondun 2019-ci il üçün ekspertlərinin tərkibinin müzakirəsi və təsdiqi;
4. Cari məsələlər.

Müşahidə Şurasının sədri Həsən Həsənov gündəlikdəki birinci məsələ barədə məlumat vermək üçün sözü Fondun icraçı direktoru Vüqar Səfərliyə verib. İclasda hesabat məruzəsi ilə çıxış edən icraçı direktor 2018-ci ildə respublikanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında baş vermiş hadisələrin diqqət mərkəzində saxlanıldığını bildirib.

V.Səfərli mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən çoxsaylı layihələr barədə məlumat verib. İcraçı direktor, Fondun 2018-ci ildə gündəlik, günaşırı və həftəlik nəşr olunan 33 qəzetə maliyyə dəstəyi göstərdiyini, həmin qəzetlərdə "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nda nəzərdə tutulmuş 19 istiqamət üzrə 6.000 səhifədən çox yazının dərc edildiyini bildirib.

Dövlət və cəmiyyət üçün həlli vacib məsələlərdə medianın potensialından səmərəli istifadəyə, jurnalist peşəkarlığının artırılması və sosial müdafiəsinin gücləndirilməsi məsələlərinə xüsusi diqqət ayrıldığını deyən Vüqar Səfərli Fond tərəfindən bu məqsədlə 3 dəfə - Novruz bayramı, Azərbaycan Milli Mətbuatının 143-cü ildönümü və 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə fərdi jurnalist yazıları müsabiqələrinin təşkil olunduğunu diqqətə çatdırıb. Fond 2018-ci ildə, həmçinin Müəllif Hüquqları Agentliyi, Suraxanı və Qaradağ rayon icra hakimiyyətləri, "Azərişıq", "Azərenerji" açıq səhmdar cəmiyyətləri, Mədəniyyət Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (2 müsabiqə) ilə birgə 8 əlavə müsabiqə keçirib. Ümumilikdə, 2018-ci ildə keçirilmiş 11 müsabiqədə 817 nəfər iştirak edib, onlardan 443 nəfəri qalib olaraq mükafatlandırılıb.

İcraçı direktor Fondun Müşahidə Şurasının qərarı ilə ötən il fərdi jurnalist yazıları müsabiqələrində I yerə layiq görülmüş jurnalistlərin yazıları toplanaraq "Sözün zirvəsində" adlı kitabın IV cildinin nəşr edildiyini bildirib. Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin 18 yanvar 2018-ci il tarixli "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncamına əsasən, Fond 2018-ci ildə Dağlıq Qarabağda erməni separatizminin 30 illiyi ilə əlaqədar "Dağlıq Qarabağda erməni separatizminin 30 ili: qlobal təhlükə" adlı kitab nəşr etdirib. Kitabda Fondun maliyyə yardımı ilə 2017-2018-ci illərdə "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti üzrə layihə icra etmiş qəzetlərdə dərc olunmuş yazılar toplanıb.

Vüqar Səfərli bildirib ki, "Xalq Cümhuriyyəti ili" çərçivəsində Fond müsəlman Şərqində ilk demokratik və hüquqi dövlətin "İstiqlal bəyannaməsi"nin Gürcüstan Respublikasının paytaxtı Tbilisi şəhərində elan edildiyini, Cümhuriyyətin ilk hökumətinin və onun banilərinin dövlətçilik fəaliyyətinin bu şəhərlə sıx bağlılığını nəzərə alaraq 2018-ci ilin oktyabr ayında aparıcı media rəhbərlərinin Tbilisi şəhərinə səfərini təşkil edib. Bundan əlavə, beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə 2018-ci ilin noyabr ayında aparıcı media qurumlarının rəhbərlərindən ibarət nümayəndə heyətinin Türkiyə Respublikasının paytaxtı Ankara şəhərinə işgüzar səfəri təşkil edilib.

V.Səfərli Fondun 2018-ci ildə "Azərbaycan mətbuat məkanında ədəbi dilin qorunması", "Azərbaycan teleradio məkanında ədəbi dilin qorunması" və "Jurnalist peşəkarlığının artırılması" mövzusunda layihələri maliyyələşdirdiyini, hər üç layihə üzrə aparılmış monitorinqlər zamanı media və teleradio məkanının dil problemlərinin araşdırıldığını və müvafiq təkliflərin irəli sürüldüyünü vurğulayıb.

Fondun redaksiyalara metodiki, texniki-təşkilati, konsultativ və maliyyə dəstəyini davam etdirdiyini deyən V.Səfərli ötən il keçirilmiş digər layihə və tədbirlər barədə də ətraflı məlumat verib.

Sonra hesabat ətrafında müzakirələr aparılıb. Müşahidə Şurasının sədr müavini İlqar Hüseynov, üzvlərdən Bəhruz Quliyev, İntiqam Hümbətov, Əvəz Rüstəmov, Rasim Həsənov və Ayaz Mirzəyev çıxış edərək Fondun 2018-ci ildəki fəaliyyətini qənaətbəxş dəyərləndiriblər və hesabat yekdilliklə qəbul edilib.

İclasda ikinci məsələ kimi Fondun 2019-cu il üçün Tədbirlər Planı müzakirə olunub. 2019-cu ilin respublikamızda "Nəsimi ili" elan olunduğunu deyən V.Səfərli hazırlanmış Tədbirlər Planında bunun nəzərə alındığını vurğulayıb. Tədbirlər Planı Müşahidə Şurasının üzvləri tərəfindən irəli sürülmüş bir sıra təkliflər nəzərə alınmaqla təsdiq edilib.

İclasda, həmçinin Fondun 2019-cu il üçün ekspertlərinin siyahısı müzakirə olunaraq təsdiq edilib.

Cari məsələlərin müzakirəsi zamanı icraçı direktor V.Səfərli Fondun qarşıdakı fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib.

## Qran-Pri yarışı ilə bağlı maraqlı təşəbbüs

Mayın 11-13-də Bakıda keçiriləcək para-cüdo üzrə Qran-Pri yarışlarının qaliblərinə Azərbaycan xalq nağılının qəhrəmanı olan"Cırtdan"ın kimonoda olan fiquru hədiyyə ediləcək.

Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsindən (ARMPK) Əlil arabası istifadəçisi Bahar Şıxıyeva belə bir təşəbbüslə çıxış edib. O, öz əl işi olan kuklanı ARMPK-nın rəhbərliyinə təqdim edib. B.Şıxıyeva cüdo yarışlarında qalib gələn hər bir idmançı üçün "Cırtdan" fiqurunu hazırlaya biləcəyini söyləyib.



ARMPK təşəbbüsü bəyənərək həmin hədiyyələrin B.Şıxıyeva tərəfindən qaliblərə şəxsən təqdim olunması barədə qərar qəbul edib. Komitənin dəstəyi ilə B.Şıxıyeva həmin hədiyyədən 70 ədəd hazırlayacaq.

"Tokio 2020" Yay Paralimpiya Oyunlarına lisenziya xalı qazandıran yarış şəhərimizdə ilk dəfə keçiriləcək. Yarışda 43 ölkədən 250 idmançı iştirak edəcək.

## Karateçilərimiz "Paris Open" turnirində

***Karate üzrə Azərbaycan milli komandası yeni yarış mövsümünə start verib. Qəbələdə təlim-məşq toplanışından sonra yığmamız 18 nəfərlik heyətlə Fransanın paytaxtında keçirilən "Paris Open" Karate1 Premyer Liqa turnirində iştirak edir.***



Federasiyanın prezidenti Yaşar Bəşirovun rəhbərlik etdiyi heyətdə baş katib Mirhəsən Seyidov, beynəlxalq hakimlər Cahangir Babayev və Vüqar Kərimov da yer alıblar.

Məşqçi heyətindən isə kumite üzrə baş məşqçi Bahəddin Kandaz, böyük məşqçilər Şahin Xudaverdiyev, Qurban Tağıyev, Anar Allahverdiyev və Denis Morozov, həmçinin kata üzrə baş məşqçi Vahid Ayvazov komanda ilə bir yerdədir.

Bu gün start götürən yarışda məşqçilər əsas heyətdən əlavə, bir neçə çəkidə əvəzedici heyətə də nüfuzlu yarışda iştirak etmək imkanı yaradıblar. Komandamızın heyətində Firdovsi Fərzəliyev (60 kq), Rafael Ağayev (75 kq), Roman Heydərov (kata), İlahə Qasımova (55 kq), Ayxan Mamayev, Şahin Atamov, (84 kq-dan yuxarı), Fəridə Abiyeva (61 kq), İrina Zaretska (68 kq) kimi təcrübəli karateçilər də yer alıb. Medallar uğrunda həlledici görüşlər bazar günü keçiriləcək. Bu yarış həm də kumite üzrə yeni baş məşqçi, türkiyəli mütəxəssis B.Kandazın Azərbaycan karateçiləri ilə ilk rəsmi turniridir. Dünya Karate Federasiyasının (WKF) mötəbər Karate1 Premyer Liqa seriyasından ilin ilk turnirində 82 ölkədən 776 idmançı iştirak edəcək. Karateçilər hər qələbəyə və medallara görə dünya reytinqində mövqelərini gücləndirməkdən əlavə, Tokio-2020 və ikinci Avropa Oyunlarına vəsiqə almaq uğrunda reytinq xalları da qazanmağa çalışacaqlar.



## Türkiyənin şəhid övladları Velotrekdə oldular

Nəsimi rayon İcra Hakimiyyəti və Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının birgə reallaşdırdığı layihə əsasında Bakı şəhərində səfərdə olan Türkiyə şəhidlərinin övladları müxtəlif tədbirlərdə iştirak edir, Bakı şəhərinin tarixi yerləri və muzeyləri ilə tanış olurlar.

Səfər çərçivəsində qonaqlar Respublika Velotrekinə də baş çəkiblər. Türkiyəli şəhid övladları dünyada və Azərbaycanda velosiped idmanının tarixini özündə əks etdirən Velosiped Muzeyi ilə tanış olub, Velotrekdə velosipedçilərimizin məşqini izləyib, həmçinin özlərinin velosiped sürmək bacarıqlarını nümayiş etdiriblər.

## *Naxçıvan şəhər açıq birinciliyinə yekun vurulub*

İslam Hümbətov adına Uşaq-Gənclər İdman Məktəbində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında kiçikyaşlı yeniyetmələr arasında keçirilən cüdo üzrə Naxçıvan şəhər açıq birinciliyinə yekun vurulub. Birincilikdə 10 çəki dərəcəsi üzrə 70-dən çox idmançı iştirak edib. Açıq birincilikdə Naxçıvan şəhərinin cüdoçuları ilə yanaşı, Culfa rayonunun idmançıları da mübarizə aparıblar.

Cüdonun mövcud qaydalarına uyğun olaraq keçirilən açıq birinciliyin yekununa əsasən Yusif Əhmədli, Rəhim Qaybalıyev, Qurban Məmmədli, İlham Məmmədli, Yusif Quliyev, Asiman Muradov, Faiq Məmmədli, Əli Cəfərzadə, Üfüq Ələkbərov və Sadiq Həsənzadə öz çəki dərəcələrində birinci yerlərə layiq görülüblər.

Sonda ilk üç yeri tutan idmançılar diplomla təltif olunublar.



## Oğuz voleybolçuları xatirə turnirində yarışıblar

20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar olaraq Oğuz Rayon Gənclər və İdman İdarəsinin və Oğuz Rayon Uşaq və Gənclər Şahmat Məktəbinin təşkilatçılığı ilə orta təhsil müəssisələri arasında voleybol yarışı keçirilib.

Qızlardan ibarət 8 komandanın iştirakı ilə keçirilən yarışın təşkilində məqsəd uşaq və gənclərdə vətənpərvərlik ruhunu yüksəltmək, şagirdlər arasında voleybol idman növünün kütləviliyini daha da artırmaq, perspektivli idmançıları aşkar etməkdir.

Oğuz rayon 2 saylı orta məktəbin idman zalında təşkil edilən yarışda Bucaq, Padar, Calid, Bayan, Sincan kənd, eləcə də, Oğuz rayon 1, 2 və 3 saylı şəhər orta məktəb komandaları gərgin mübarizə aparıb. Qızların yarışı Azərbaycan Voleybol Federasiyasının qaydalarına əsasən, Olimpiya sistemi üzrə keçirilib. Voleybol turnirinin qalibi adını 1 saylı şəhər orta məktəbinin təmsilçiləri qazanıblar.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# Gənclərin mənəvi tərbiyəsində idman klublarının da böyük rolu var

***Respublikamızda gənc nəslin sağlamlığı üçün idman təmayüllü müxtəlif klublar, cəmiyyətlər və ocaqlar fəaliyyət göstərir. Bu klublarda gələcəyin Olimpiya, dünya və Avropa çempionları yetişirlər. Təsadüfi deyil ki, bu gün ölkəmizdə genişləndirilən idman infrastrukturuna şəxsi təşəbbüslərlə yaradılan mərkəzlər də öz töhfəsini verir. Müxtəlif idman növləri üzrə fəaliyyət göstərən bu cür mərkəzlər həmin növlərin populyarlığı və kütləviliyinin əsas məsələ kimi önə çəkir.***

***Cüdo idman növünün ölkəmizdə populyarlaşmasında və kütləviliyində rol oynayan klublardan biri də "Judo Club 2012"dir.***

Bu möhtəşəm klubda uşaq və gənclərin fiziki və mənəvi inkişafı üçün hər cür şərait yaradılıb. Klubun yaradıcısı "Cüdo Klub 2012" İctimai Birliyinin sədri, Azərbaycan Cüdo Federasiyası İcraiyyə Komitəsinin üzvü, cüdo üzrə veteran ustalar arasında dünya və Avropa çempionatlarının dəfələrlə qalib və mükafatçısı olan Azər Əsgərovdur. 2012-ci ildə yaradılan klub ölkədə bu idman növünün inkişafı və populyarlaşmasına töhfələr verir. Klub qısa zaman ərzində yeniyetmə, gənc və veteran idmançıların sevimli məkanına çevirilib. Bu idman ocağında ümumilikdə 500-600 idmançının məşq etməsi üçün hər cür şərait yaradılıb. Hazırda burada müxtəlif yaş qrupları üzrə təxminən 500-dən çox uşaq, yeniyetmə və gənc müxtəlif idman növlərinin sirlərinə yiyələnir. Gün ərzində təşkil olunan məşqlər 5-6 qrup üzrə müxtəlif saatlarda keçirilir. Keyfiyyətli məşq prosesinin təşkili üçün hər cür infrastrukturu olan üçmərtəbəli binada ayrıca idman zalları mövcuddur. Zalların hər biri zəruri məşq avadanlıqları, sanitariya-gigiyena qovşaqları ilə təchiz edilib. Klubda bundan başqa trenajor zalı, futbol və basketbol üçün açıq meydança və tibb məntəqəsi yerləşir. Burada təlim-məşq toplanışları və müxtəlif turnirlərin keçirilməsi üçün də lazımi şərait yaradılıb.

Bu yaxınlarda "Judo Club 2012"nin icarçı direktoru, Əməkdar məşqçi, cüdo və sambo üzrə idman ustası, təqüddə olan polis polkovniki Hafis Hacıyev ilə görüşüb, klubun fəaliyyəti barəsində məlumat aldıq. Qeyd edək ki, dəfələrlə respublika çempionatlarının, ümumittifaq və beynəlxalq turnirlərin qalibi və mükafatçısı olan müsahibimiz uzun müddət cüdo üzrə yığma komandanın məşqçisi və "Dinamo" idman cəmiyyətinin baş məşqçisi, həmçinin 11 il Polis Akademiyasının fiziki hazırlıq kafedrasının rəisi vəzifəsində çalışıb. Müsahibimiz burada uşaq, yeniyetmə və gənclərin fiziki sağlamlığının inkişafı üçün hər cür şəraitin yaradıldığını qeyd etdi.

""Judo Club 2012" adından da göründüyü kimi, ölkəmizdə cüdo idman növünün təbliği və kütləviliyinin təmin edilməsinə xidmət edir. Çalışırıq ki, gördüyümüz işlə Azərbaycan idmanına xidmət edək. Biz, həmçinin Azərbaycan Cüdo Federasiyasının ölkəmizdə cüdonun inkişafı istiqamətində həyata keçirdiyi tədbirlərə öz əməli işimizlə dəstək olmağa çalışırıq. Bu gün Azərbaycanın cüdo üzrə qadınlardan və veteranlardan ibarət yığma komandalarının üzvləri də klubun zalında təmənnasız məşq edirlər. Bir sözlə, qapımız hər kəsin üzünə açıqdır. Bundan başqa klubda hər həftənin cümə günləri digər klubların idmançılar və məşqçiləri üçün açıq qapı günləri elan etmişik. Səvindirici haldır ki, təmsilçilərimiz respublika çempionatları ilə yanaşı, beynəlxalq arenalarda da qüvvələrini sınayır, il-dən-ilə uğurlarını artırırlar. Klubumuzun üzvləri arasında qazandığı nailiyyətləri ilə gənc nəsilə örnək olan idmançılar var. Yetirmələrimiz dəfələrlə gənclər arasında Azərbaycan çempionatının və Avropa kuboklarının qalib və mükafatçısı olublar.



Tam səmimi deyə bilərəm ki, bu gün "Judo Club 2012"nin bu səviyyəyə çatmasında, uğurlarımızın artmasında veteranlar arasında dəfələrlə dünya və Avropa çempionu, cüdo üzrə əməkdar idman ustası Azər Əsgərovun rolu çox böyükdür. Azər Əsgərov bu gün həqiqətən də ölkəmizdə cüdonun inkişafı üçün öz bacarığını əsirgəmir. Bir daha qeyd edim ki, bu klubun ərsəyə gəlməsində və nailiyyətlərin artmasında onun rolu danılmazdır. O, klubda hər bir idmançıya və məşqçiyə diqqət və qayğı ilə yanaşır, onların bütün istəklərini həyata keçirməyə çalışır. Azər Əsgərov həmçinin veteranlar hərəkatının da təsisçisidir. Bir sözlə, bir klub olaraq çalışırıq ki, dövlətin idman siyasətinə öz töhfəmizi verək. Qabaqcıl idman klubu olaraq çalışırıq ki, hər il nailiyyətlərimizi daha da yüksəldək, eyni zamanda uşaq və yeniyetmələrin fiziki inkişafına, onların sağlam ruhda böyüməsinə nail olaq. Bundan başqa çalışacağıq ki, Tokio-2020 və digər Olimpiya Oyunlarında Azərbaycan komandasının heyətində "Judo Club 2012"nin idmançıları da yer alsınlar", - deyə Hafis Hacıyev bildirdi.

## "Çalışırıq ki, klubda bir ailə mühiti formalaşdıraq"

Əvvəllər klubda cüdo idman növünün inkişafı nəzərdə tutulsa da, zaman keçdikcə müxtəlif idman növlərinə olan tələbat burada da öz əksini tapdı. Artıq klubda günün müxtəlif saatlarında cüdo ilə yanaşı, sambo, karate, aykido, bədii gimnastika və akrobatika növləri üzrə məşqlər keçirilir. "Judo Club 2012"nin icraçı direktoru idman növlərinin sayının artırılması məsələsinə münasibətini belə bildirdi: "Klub yaradılanda əsas məqsəd ondan ibarət olub ki, burada cüdo idman növü inkişaf etdirilsin. Klubda bu gün hər yaş qrupu üzrə idmançılar məşq edirlər. Zaman keçdikcə klubda sambo, karate, aykido, bədii gimnastika və akrobatika bölmələrini yaratdıq. Bu bölmələrin yaradılmasında da müəyyən məqsədlər var. Biz hər zaman çalışırıq ki, klubda bir ailə mühiti formalaşdıraq. Bunun üçün təkcə uşaqlara deyil, onların valideynlərinin məşq etmələrinə də şərait yaradılıb. Məsələn, elə valideynlər var ki, qızını gimnastika, oğlunu isə cüdo bölməsinə yazdırıb. Həmin valideynlər uşaqlarının məşq saatı ərzində vaxtlarını səmərəli keçirmək üçün özləri də aykido və ya digər idman bölmələrinə yazılaraq məşqlərdə iştirak edirlər. Etiraf edim ki, klubumuzda belə ailələrin sayı kifayət qədərdir. Yəni uşaqlarla yanaşı, valideynlər də klubdakı məşqlərdən yararlanırlar. Bu bizim ən böyük uğurumuzdur. Bir sözlə, "Judo Club-2012" ailəvi klubdur. Elə valideyn var ki, uşağını 5 yaşından cüdo bölməsinə yazdırmaq istəyir. Təbii ki, həmin uşaq məşqlərə cəlb edilməzdən əvvəl tibbi yoxlanışdan keçir. Əgər həmin uşaq cüdo məşqləri üçün hələ tam hazır deyilsə, biz onu akrobatikaya yönləndiririk. Bildiyiniz kimi akrobatika əzələlərin inkişafı və elastikliyi üçün ən yaxşı vasitədir. Yalnız bundan sonra onu cüdo məşqlərinə qəbul edirik. Bu hal bir növ cüdoya keçid rolunu da oynayır. Bu gün bəzi uşaqlar var ki, digər idman növlərinə maraq göstərirlər. Biz onların bu istəyini nəzərə alaraq karate, sambo və aykido bölmələrini yaratmışıq. Düzünü desəm, biz vaxtında boks, kikboksinq və güləş bölmələrini də yaratmağı düşünürdük. Lakin bunun üçün qarşıya bəzi maneələr çıxdı. Klubda idman növlərinin sayının artırmaqla cüdodan bir qədər uzaqlaşa bilərik. Qeyd etdiyim kimi, biz bu klubda əsasən cüdo idman növünün inkişafı üçün çalışırıq.

Uşaq və gənclərin fiziki və mənəvi inkişafına nail olmaq hər birimizin borcudur. Biz öz klubumuzda dövlətimiz üçün sağlam vətəndaş, sağlam əsgər hazırlayırıq. Onları mənəvi cəhətdən kamil insan kimi yetişdirməyə çalışırıq. Bunun üçün məncə hansısa idman növü ilə məşğul olmağın fərqi yoxdur. Bütün idman növləri fiziki sağlamlığın daşıyıcısıdır. Təki Azərbaycan gəncləri öz asudə vaxtlarını idmana sərf etsinlər. Şərt o deyil ki, onlar cüdo ilə məşğul olsunlar. Hansı idman növünü seçməsindən asılı olmayaraq, onlar gələcəyin sağlam gəncləri olacaqlar. Bax, budur bizim əsas məqsədimiz".

## "Yaxşı idmançı olmaq, yaxşı məşqçi olmaq deməkdeyil"

"Judo Club 2012" gənc olmasına baxmayaraq artıq öz uğurları ilə digər köklü klublarla rəqabətə girir, nəticələri ilə ilk üçlükdə qərarlaşmağı bacarır. Elə sonuncu yarışlar da bunu deməyə əsas verir. Belə ki, "Judo Klub 2012" komandası kişilər arasında respublika çempionatında üçüncü, yeniyetmələr arasında ölkə birinciliyində isə ikinci yeri tutub. Klubun heyətində Murad Fətiyev, Afiq Səfərli, Məhəmməd Abdullayev, Ayxan Tanrıverdiyev, Hüseyn Məmmədov, Nicat Məmmədli, Diana Şoranova, Fidan Dadaşova, Fərid Ağayev, Nuri Əliyev kimi perspektivli idmançılar var. Bu idmançılar ötən il ərzində ölkədaxili və beynəlxalq yarışlarda mükafatçılar sırasında yer almağı bacarıblar. Təbii ki, bu uğurların qazanılmasında məşqçilərin də xüsusi əməyi var. Məhz məşqçilərin bacarığı və təcrübəsi sayəsində belə nailiyyətlərə yiyələnmək mümkün olub. Klubda məşq edən idmançılarla peşəkar məşqçi-müəllim kollektivi çalışır. Əməkdar məşqçi Tərlan Həsənov, idman ustaları İlham Cəfərov, Zaur Paşayev, İntiqam Ələkbərov, Qeybulla Əliyev, Vüqar Budaqov, Məmməd Məmmədov, Gündüz Mahmudov, Namiq Pirverdiyev kimi təcrübəli məşqçilər yeniyetmə və gənclərə müxtəlif idman növlərinin sirlərini öyrədirlər.

Hafis Hacıyev klubun gələcək üçün perspektiv vəd edən idmançılarından danışaraq onların bu nəticələri qazanmasında məşqçilərin rolunun danılmaz olduğunu qeyd etdi. "Sonuncu respublika çempionatında ölkənin ən güclü cüdoçuları iştirak edirdilər. Qeyd edim ki, bu yarışda Ruslan Osmanov bürünc, Murad Fətiyev isə qızıl medala sahib çıxdı. Titulu idmançılar üzərində qələbələrin qazanılması və uğurlu nəticələrin əldə olunması məşqçi-idmançı işinin düzgün qurulmasının göstəricisidir. Bu, o deməkdir ki, klubumuzda yığma komandaya yeni namizədlər yetişir. Təbii haldır ki, uğur qazanmaq üçün təcrübəli məşqçi-müəllimin olması vacib şərtdir. Bu gün klubumuzda öz işinin öhdəsindən gələn peşəkar məşqçilər çalışırlar. İdman ocağında işləyən məşqçilərimizin hər biri idman üzrə ali təhsil almış mütəxəssislərdir. Vaxtilə yığma komandanın üzvləri olan bu məşqçilər həmçinin bir sıra turnirlərin qalib və mükafatçılarının yetişməsində böyük pay sahibi olublar. Bir faktı da diqqətinizə çatdırım ki, yaxşı idmançı olmaq, yaxşı məşqçi olmaq demək deyil. Yaxşı məşqçi olmaq üçün xüsusi qabiliyyətin, bacarığın olmaldır. Ən azından bilməlisən ki, məşq hansı proseslərdən ibarətdir. Bunun üçün pedaqoq olmaq lazımdır. Müəllim uşaqlarla davranış qaydasını bilməli, məşqləri təşkil etməyi bacarmalıdır. Məşqçi heç vaxt uşaqları təhqir edib, onlara qorxu ilə təsir etməməlidir. Əminliklə deyə bilərəm ki, klubumuzda belə hallar yoxdur. Məşq prosesi xüsusi monitorlar vasitəsi ilə həm rəhbərlik, həm də



valideynlər tərəfindən onlayn olaraq izlənilir. Bizim digər üstün cəhətimiz isə klubda istər məşqçilər, istərsə də idmançılar arasında nizam-intizam qaydalarına ciddi riayət olunmasıdır. Bu, klubun uğurlarının təməlidir", - deyə Hafis Hacıyev bildirdi.

## Klubda sağlamlıq və gigiyena məsələsi ön plandadır

Klubda olduğumuz müddətdə fürsətdən istifadə edib, burada yerləşən tibb məntəqəsi ilə də tanış olduq. İdman ocağında həm təmizlik üçün, həm də məşq prosesi zamanı zədə alan idmançılara ilkin müdaxilə göstərilməsi üçün hər cür şəraitin yaradıldığının şahidi olduq. Elə klubun icraçı direktoru da bizimlə söhbətində tibb məntəqəsinin fəaliyyətindən danışaraq, klubda sağlamlıq və gigiyena məsələsinin ön planda olduğunu vurğuladı: "Gördüyünüz kimi, klubumuzda tibb məntəqəsi də fəaliyyət göstərir. Məşqin qaydalarına görə həkim məşqdən əvvəl hər bir uşağı yoxlayır və sonra onların zala daxil olmasına icazə verir. Klubumuzda hər həftənin cümə günləri sınaq yarışları keçirilir. Bu tipli məşqlərdə idmançıların zədə alma ehtimalları olduğu üçün həkim mütləq zalda olur. Digər hallarda isə həkim tibb məntəqəsində öz işini görür. Onu da bildirim ki, hər zalda ilkin müdaxilə üçün tibbi ləvazimatlar var. Zədələnən və özünü narahat hiss edən idmançı olarsa, dərhal tibb məntəqəsi ilə əlaqə saxlanılır. Bu zaman isə zalda olan tibbi ləvazimatlar və məşqçinin köməkliyi ilə həmin idmançıya ilkin yardım göstərilir".

## Samuraylar "Judo Club 2012"ni seçdilər

Sentyabr ayında ölkəmizdə keçirilən cüdo üzrə dünya çempionatı zamanı yarışın lideri olan Yaponiya komandası turnirə hazırlığın son mərhələsini "Judo Club 2012"nin dünya standartlarına cavab verən məşq bazasında keçib. Klub rəhbərliyi cüdonun vətənindən gələn idmançılara təmənnasız xidmət göstərib. "Cüdo Klub 2012" İctimai Birliyinin sədri Azər Əsgərovun köməyi ilə klubda onlar üçün hər cür şərait yaradılıb. Yaponiya komandası Azərbaycanda gördükləri qonaqpərvərliyə cavab olaraq çempionat başa çatdıqdan sonra "Judo Klub 2012"də ustad dərsləri təşkil etmək barədə təşəbbüs irəli sürüb. Ustad dərsləri azərbaycanlı məşqçilər üçün faydalı olmaqla yanaşı, məşq zalına toplaşmış çoxsaylı uşaq və yeniyetmə cüdoçularımızın yaddaşında da unudulmaz hadisə kimi qalıb. Azərbaycan cüdo tarixində ilk dəfə keçirilən bu mötəbər tədbirə tam həyətlə gələn "samuray"lar, həmçinin Azərbaycan cüdoçularını da öz ölkələrinə dəvət ediblər. Qeyd edək ki, ustad dərslərindən sonra "Judo Klub 2012" adından Yaponiya komandasına qılınc hədiyyə olundu. Yaponiya Cüdo Federasiyasının prezidenti Yamaşita Yasuhiro isə "Judo Klub 2012"-ni təşəkkürnamə ilə təltif edib. Klubun icarçı direktoru idmançılar üçün böyük əhəmiyyət kəsb edən belə tədbirlərin gələcəkdə də davam etdiriləcəyini qeyd etdi: "Yaponiya idmançıları yarışa daha yaxşı hazırlaşmaq üçün digər komandalardan tez paytaxtımıza gəlmişdilər. Bildiyimə görə, "Gündoğar ölkədə" 2 milyondan çox əhali cüdo ilə məşğul olur. Burada cüdonun döyünən ürəyi olan "Kodokan" məktəbi fəaliyyət göstərir. Həmin məktəbin müdiri də çempionat çərçivəsində bizim kluba təşrif buyurmuşdu. Məktəbin rəhbəri bizi ölkələrinə dəvət etdi. Biz bu qonaqpərvərliyi təkcə, klubumuz üçün deyil, ölkəmiz üçün etdik. Məlumdur ki, Tokio 2020-ci ildə Olimpiya Oyunlarına ev sahibliyi edəcək. Azərbaycan cüdoçuları da bu yarışlarda iştirak edəcəklər. Düşünürəm ki, bu cüdoçularımızın olimpiadaya daha yaxşı hazırlığı üçün çox gözəl olar", - deyə Əməkdar məşqçi əlavə etdi.

"Judo Club 2012" gənclərin vətənpərvər ruhda tərbiyəsinə də xüsusi diqqət yanaşır. Torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsinə həsr olunmuş turnirlərin keçirilməsi gənclərin vətənpərvər ruhda böyüməsinə öz töhfəsini verir. Belə turnirlərdən biri də ənənəvi xarakter alan "Rauf Orucov Kuboku" beynəlxalq turniridir. Bu il üçüncü dəfə olaraq 21 yaşlı cüdoçular arasında Azərbaycanın ərazi bütövlüyünün qorunması uğrunda aprel döyüşlərində qəhrəmancasına həlak olmuş polkovnik-leytenant Rauf Orucovun və onun şəhid silahdaşlarının xatirəsinə həsr olunmuş növbəti beynəlxalq turnir təşkil olunacaq. Artıq turnirin hazırlıq işlərinə başlanılıb.

İnanırıq ki, klubun yetirmələri bu yarışda da öz uğurları ilə onlara bəslənən etimadları doğruldacaqlar.

***Azər Əlizadə***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

# Qılıncoynadanımız Bəhreyndə gümüş medal qazanıb




Qılıncoynatmanın şpaqa növü üzrə kişilərdən ibarət Azərbaycan millisinin üzvləri Ruslan Həsənov, Barat Quliyev, Kənan Məlikzadə və Xalid Əliyev Bəhreynin paytaxtı Manama şəhərində keçirilən gənclərin dünya kubokunun mərhələ yarışında iştirak ediblər.

Şpaqaçılarımızdan Ruslan Həsənov qrup mərhələsində keçirdiyi 5 görüşü qalib başa vurmaqla, mütləq nəticə ilə pley-offa yüksəlib. 1/16 finalda Küveyt idmançısı Xələf Əlmutairini məğlub edən Ruslan, 1/8 finalda Səudiyyə Ərəbistanı təmsilçisi Ömər Alakkas üzərində qələbə qazanıb. Təmsilçimiz yarımfinala yüksəlmək uğrunda görüşdə iordaniyalı İyad Odehə qalib gəlib. Yarımfinalda Qazaxıstan idmançısı Aleksandr Savinə qalib gələn R.Həsənov finalda Çex Respublikası təmsilçisi Yakub Yurka ilə qarşılaşıb. Rəqibinə uduzan R.Həsənov turnirin gümüş medalı ilə kifayətlənib.

Qrup mərhələsini 3 qələbə ilə başa vuran Barat Quliyev isə 1/32 və 1/16 finalda Səudiyyə Ərəbistanını təmsil edən rəqiblərini məğlub edib. Müvafiq olaraq, Əbdülkərim Alotaibi və Hüseyn Altavelə qalib gələn B.Quliyev 1/8 finalda Estoniyanı təmsil edən Yaron Kiroyaya uduzub.

Qrup mərhələsində 4 qələbə qazanan Xalid Əliyev isə 1/16 finalda bəhreynli Abdulla Abdulkərəm Mesferə uduzub. Qrupu 2 qələbə ilə başa vuran şpaqaçımız Kənan Məlikzadə isə 1/32 finalda Bəhreyn idmançısı Abdulla Albaluşiyə qalib gəlsə də, növbəti mərhələdə braziliyalı Aleksandr Kamarqoya uduzub.

## Güləş üzrə zona birinciliklərinə start verilib

Güləş üzrə yeniyetmələr arasında zona birinciliklərinə start verilib. Fevralda təşkil olunacaq Azərbaycan çempionatına seçim xarakteri daşıyan yarışlar beş məkanda keçirilir.



Belə ki, yanvarın 22-23-də Sabirabadda, yanvarın 24-25-də Sumqayıtda təşkil olunan yarış, yanvarın 26-27-də Yevlaxda, yanvarın 29-30-da isə Gəncədə yeniyetmə güləşçilərin mübarizəsi ilə davam edəcək. Bakı çempionatına isə yanvarın 22-dən start verilib, yarış bu ayın 26-dək davam edəcək. Bu yarışda paytaxtın gənc güləşçiləri də qüvvələrini sınayırlar.

* * *

Pəhləvanlarımız 2019-cu ilin ilk beynəlxalq yarışında iştirak edirlər. İdmançılarımız İranın Əndiməşk şəhərində keçiriləcək yunan-Roma güləşi üzrə "Təxti kuboku"nda qüvvələrini sınayırlar. Ənənəvi yarışda ölkəmizi yığmamızın böyük məşqçisi Rövşən Bayramov və məşqçi Emin Əhmədovun rəhbərliyi altında Ziyad Zeynalov (55 kq), Murad Bazarov, Mikayıl Rəhimov (hər ikisi 60 kq), Zaur Nuriyev (63 kq), Kərim Cəfərov (67 kq), Azad Əliyev (72 kq), Nəsir Həsənov (77 kq), Elməddin Ramazanov, Eltun Vəzirzadə (hər ikisi 82 kq) və Arif Niftullayev (97 kq) təmsil edir.

Qeyd edək ki, III dərəcəli beynəlxalq hakimimiz Elgün Məmmədov turnirdə ədaləti qoruyacaq.

## Dünya Estafet Yarışlarının proqramına iki növ əlavə olunub

Beynəlxalq Atletika Federasiyası Yaponiyanın Yokohama şəhərində keçiriləcək Dünya Estafet Yarışlarının proqramına iki növ əlavə edib.




Bu il atletlər qarışıq estafet (2x2x-400m) və qarışıq sədlərlə estafet yarışlarında da güclərini sınayacaqlar. Mayın 11-12-də keçiriləcək estafet yarışlarında kişilər, qadınlar və cütlüklər 3 növdə mübarizə aparacaqlar.

Qarışıq sədlərlə estafet Dünya Estafet proqramında tamamilə yeni növdür. Qarışıq estafet Yokohama yarışında 800 metr məsafəyə estafet qaçışını əvəzləyəcək. Buna səbəb bu növə daha az marağın olması idi.

# "İdmançı" qəzetinin 20 yaşı tamam olub

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının mətbu orqanı olan "İdmançı" qəzetinin 20 yaşı tamam olub. Təhsil ocağının qəzeti 1998-ci il dekabr ayının 2-də nəşrə başlayıb. "İdmançı" fəaliyyətinin ilk günlərindən gənc nəslin təlim - tərbiyəsi işinin fəal iştirakçısına çevrilmiş, tələbələrin mənəvi-əxlaqi tərbiyəsində mühüm rol oynamışdır. Bu illər ərzində "İdmançı" qəzetində göstərmək, akademiyanın rəngarəng həyatını, kafedralarda aparılan elmi-tədqiqat işlərini, mədəni-kütləvi tədbirləri, tələbə məişətini dolğun işıqlandırmaqdır. Bir sözlə, qəzetdə günün aktual məsələləri, akademiyada gedən yenidənqurma, təmir-tikinti və abadlıq işləri barədə maraqlı məqalələr, şərhlər, reportajlar, xəbərlər dərc edilir.



akademiyanın ən tanınmış elm adamları ilk qələm təcrübələrini qazanmışlar. 20 ildir ki, qəzet sanki doğma akademiyanın həyatına ayna tutur, onun acılı-şirinli, kədərli - təntənəli günlərini tarixin yaddaşına köçürür. Bədən tərbiyəsi və idman sahəsində tədris ocaqlarımızın özəyi olan akademiyada keçirilən elə bir ictimai-siyasi tədbir, maraqlı təşəbbüs yoxdur ki, "İdmançı"da öz əksini tapmamış olsun.

"İdmançı" qəzetinin qarşısında duran mühüm vəzifələrdən biri təlim-tərbiyə işinin müxtəlif sahələrini işıqlandırmaq, tədrisin keyfiyyətini, gənclər arasında tərbiyə işinin səviyyəsini yüksəltmək, onlara dostluq, yoldaşlıq hisslərini aşılamaq, mühüm elmi problemləri şərh etmək və istiqamətləndirmək, nəzərə çarpan qüsurların aradan qaldırılmasında akademiya rəhbərliyinə yaxından kömək

20 illik fəaliyyəti müddətində "İdmançı" qəzeti pedaqoji kadr hazırlığı işində bilavasitə xidmətlər göstərmiş, tələbələrin elmi-mədəni səviyyəsinin yüksəldilməsində bir sıra əhəmiyyətli tədbirlər həyata keçirmişdir. Qəzet akademiyanın elmi-mədəni nailiyyətlərini öz səhifələrində işıqlandırmaqla yanaşı, tələbə-gənclərin yaradıcılığına da öz səhifələrində yer vermiş, onlarla fəal iş aparmışdı.

Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən dəfələrlə ilin ən yaxşı tarixi yazarı, peşəkar jurnalisti, 2018-ci ilin "İlin elm adamı " adına layiq görülən pedaqogika üzrə elmlər doktoru, professor Dilqəm Quliyevin baş redaktorluğu ilə nəşr edilən "İdmançı" qəzeti Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının elmi-mədəni həyatında baş verən hadisələrin fəal təbliğatçısı kimi səmərəli fəaliyyətini bu gün də davam etdirir.

"İdmançı"nın akademiya daxilində öz oxucu kütləsi var və xüsusilə də bu təhsil ocağının yeni rektoru Fuad Hacıyevin fəaliyyəti nəticəsində son dövrlər qəzet rəngli nəşr olunduğundan ona maraq daha da artıb. Hazırda qəzetin elektron səhifəsi də var, bununla yanaşı, "Facebook" sosial şəbəkəsində də səhifə yaradılıb.

"İdmançı" qəzetinin 20 illik yubileyi münasibətilə nəşrin redaksiyasını ürəkdən təbrik edir, qəzetin yaradıcı kollektivinə çoxsaylı oxucu kütləsi və uğurlar arzu edirik!

## Veyk-an-Zee turnirində 10 tur geridə qaldı

Hollandiyanın Veyk-an-zee şəhərində təşkil olunan "Tata Steel Masters-2019" turnirində onuncu turun oyunlarına yekun vurulub. Yarışda mübarizə aparan Azərbaycan şahmatçıları Şəhriyar Məmmədyarov çinli Dinq Liren, Teymur Rəcəbov isə ABŞ təmsilçisi Samuel Sanklandla mübarizə aparıb. Hər iki qarşılaşma heçheçə başa çatıb. On turun nəticəsinə görə, Ş. Məmmədyarovun 4, T. Rəcəbovun isə aktivində 5 xalı var.

11-ci turun oyunlarına bu gün start veriləcək. Qrossmeysterlərimiz Teymur Rəcəbov bu turda dünya çempionu Maqnus Karlsenlə (Norveç), Şəhriyar Məmmədyarov isə hindistanlı Santoş Viditlə qarşılaşacaq.

* * *

"Gibraltar International Chess Festival 2019" turnirinin ikinci turunda Azərbaycan şahmatçılarının partiyalarında heç-heçə qeydə alınıb.

Cəbəllütariqdə keçirilən şahmat festivalının nüfuzlu "Masters" turnirində Arkadi Naydiç İsrail təmsilçisi Yevgeni Zananla, Rauf Məmmədov isə digər israilli şahmatçı Ariel Erenberqlə xalları yarı bölüblər.

Qeyd edək ki, Arkadi Naydiç ilk turda ispaniyalı Sabrina Vega Guttierez üzərində qələbə qazanıb. A.Naydiçin aktivində 1,5, Rauf Məmmədovun isə 0,5 xal var.

"Masters" turnirində hər il onlarca qrossmeyster, o cümlədən "2700 klubu"nun üzvləri iştirak edirlər. Artıq uzun illərdir ki, bu festival İsveçrə sistemi üzrə keçirilən ən güclü turnir hesab olunur. Bu il festivalın "Masters" turnirində dünyanın müxtəlif ölkələrindən 249 şahmatçı mübarizə aparır ki, onlardan da 14-ü "2700 klubu"nun üzvüdür.

Qeyd edək ki, nüfuzlu yarışda fransız Maksim Vişye-Laqrav, amerikalılar Hikaru Nakamura, Uesli So, ukraynalı Vasili İvançuk, ingilis Maykl Adams və çinli Yu Yanqyui kimi güclü şahmatçılar da iştirak edirlər.

* * *

Respublika Şahmat Mərkəzində 16 yaşınadək (2003-cü il təvəllüdlü və daha kiçik yaşlı) şahmatçılar arasında beynəlxalq reytinq turniri başa çatıb.

Turnirdə 43 şahmatçı (onlardan 4-ü qızdır) birincilik uğrunda mübarizə aparıb. İsveçrə sistemi üzrə keçirilən yarışda yekun nəticəyə görə, birinci yeri 8,5 xalla Ayxan Mustafayev tutub. İkinci yerə 7 xalla Aqil İsrailov layiq görülüb. Üçüncü yerə isə 6,5 xalla (əmsal 53,5) Rüfət Əbdülbağıyev sahib olub.

Yarışın bağlanış mərasimində Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin baş məsləhətçisi Salman Əbdülov və yarışın baş hakimi, beynəlxalq dərəcəli hakim Nurəli Məmmədzadə şahmatçıların idman ustalıqlarının artırılmasında, həmçinin onların erkən yaşlardan beynəlxalq reytinqə yiyələnməsində bu yarışın xüsusi rolunu vurğulayıb, qaliblərə və iştirakçılara gələcək yarışlarda uğurlar arzulayıblar.

Turnirdə ilk üç yeri tutmuş idmançılar, o cümlədən 6,5 xalla (əmsal 51,5) dördüncü yerə sahib olmuş Təbriz Nurəhməd və 6 xalla beşinci yerə layiq görülmüş (əmsal 50,5) İlkin Məmmədli müvafiq dərəcəli diplom, medal və pul mükafatları ilə təltif olunublar. Qızlar arasında ən yaxşı nəticə göstərmiş Zəhra İsrafilzadəyə (5 xal) Azərbaycan Şahmat Federasiyası tərəfindən hazırlanmış şahmat kitabı hədiyyə edilib.

* * *

Bu ilin martına nəzərdə tutulan kişi və qadın şahmatçılardan ibarət milli yığmalar arasında dünya çempionatı çərçivəsində peşəkar futbolçularla şahmatçılar arasında futbol matçı keçirilə bilər. Bunu Beynəlxalq Şahmat Federasiyasının (FİDE) yeni prezidenti Arkadi Dvorkoviç bəyan edib. O, bu sözləri Davos Dünya İqtisadi Forumundakı bəyanatında deyib. "Biz ilk belə matçı, hətta mini turniri Batumidə seçkilər zamanı təşkil etmişik. İndi baxıb görürük ki, bunu bu il etmək daha yaxşıdır. Ola bilsin, mart ayında keçiriləcək komandalar arasında dünya çempionatı zamanı", - deyə FİDE prezidenti qeyd edib.

Şahmatçıların iştirakı ilə futbol matçının, eləcə də FİDE-nin komandalar arasında dünya çempionatının keçirilməsi yeri hələ müəyyən olunmayıb və gələn həftə elan ediləcək. Əvvəlki birincilik 2017-ci ilin yayında Xantı-Mansiyskdə keçirilib.

Arkadi Dvorkoviç FİDE-nin 2018-ci il oktyabrın 3-də Batumidə keçirilən konqresində qurumun prezidenti seçilib. Sonralar Beynəlxalq Futbol federasiyasının (FIFA) və onun prezidenti Canni İnfantino ilə tərəfdaşlıq münasibətləri quraraq birgə layihələrin həyata keçirilməsinin, o cümlədən peşəkar futbolçuların və şahmatçıların iştirakı ilə futbol matçlarının anonsunu verib.

A.Dvorkoviç daha əvvəl bildirib ki, şahmatın populyarlığının aşağı olmasından narazıdır və onu futbol səviyyəsinə qaldırmaq niyyətindədir.

Xatırladaq ki, hazırda şahmatın baxımlılığına görə ondan heç də geri qalmayan idman növü - boks ilə simbiozu var. Şahboks üzrə yarışlar 2003-cü ildən keçirilir. Burada idmançılar qalib adı uğrunda növbə ilə rinqdə və şahmat taxtası arxasında mübarizə aparırlar.

* * *

Salyan Rayon Gənclər və İdman İdarəsi tərəfindən 20 Yanvar şəhidlərinin xatirəsinə həsr edilmiş yeddi yaş qrupunda



şahmat üzrə rayon birinciliyi keçirilib. Salyan Uşaq Gənclər İdman Şahmat Məktəbində keçirilən yarışda Gənclər və İdman İdarəsinin rəisi Araz Hüseynov 20 Yanvar faciəsi haqqında məlumat verərək, bu hadisənin xalqımızın igidlik salnaməsi olduğunu bildirib və şahmatçılara gələcək yarışlarda uğurlar arzulayıb.

Qaliblər Salyan Rayon Gənclər və İdman İdarəsi tərəfindən diplomlarla təltif ediliblər.

## Maraqlıdır

# Planeti ovsunlayan idman növləri və onun sadiq azarkeşləri

### Ən çox azarkeşi olan idman növü hansıdır?



Bu gün həyatımızı idmansız təsəvvür edə bilmirik. İnformasiya əsrində aldığımız hər 5 məlumatdan 3-ü idmanın payına düşür. Heç kəsə sirr deyil ki, KİV-lərdə və sosial şəbəkələrdə daha çox idmanla bağlı hadisələr böyük marağa səbəb olur. Bu sahə geniş auditoriyaya malikdir, desək, yəqin ki, yanılmarıq. Sual yarana bilər ki, bu gün dünyada ən çox azarkeş hansı idman növünü seçir. Statistikaya görə planetin 7 milyarda yaxın sakini idmana maraq göstərir. Bu rəqəm, doğrudan da, böyük göstəricidir. Bəs görəsən, daha çox azarkeşi olan idman növləri hansılardır?

İdman sahəsində böyük nüfuza malik olan "Olimpiya dünyası" qəzeti bu sayında öz sadiq oxucularına dünyada ən çox azarkeşi olan idman növlərinin ilk onluğunu geniş şəkildə təqdim edir. Nəzərinizə çatdıraq ki, bu siyahı dünyanın aparıcı idman qurumlarının hesabatları əsasında tərtib olunub.

**1. Futbol**

Siyahının birinci pilləsində təbii ki, futbol yer alıb. Aparılan sorğulara əsasən bu gün dünyada futbolun 4 milyard azarkeşi var. Futbol üzrə keçirilən hər bir beynəlxalq turnir istənilən ölkədə maraqla qarşılanır. 90 dəqiqə ərzində yaşıl meydanlarda baş verən hər bir hadisə böyük diqqət cəlb edir, müzakirələrə səbəb olur. Bu gün futbolda baş verən ən əsas hadisələr isə klublar tərəfindən aparılan transferlərlə yadda qalır. Yarım milyarda yaxın pul müqabilində bir futbolçu klubdan kluba keçir. Elə futbolçular da var ki, hər addımına, hər dəqiqəsinə və hər vurduğu qola görə böyük pul mükafatlarına sahib olurlar. Bax budur, futbolu milyardlara sevdirən və reytinqdə ilk pillədə saxlayan. Doğrudan da futbol idmanın şahıdır.

**2. Kriket**

Bu idman növü barədə çoxları az məlumata malikdir. Kriket çox az ölkədə tanınsa da, maraqlıdır ki, 3 milyarda yaxın azarkeşi var. Kriket yarışları daha çox Pakistan, İngiltərə, Hindistan və Avstraliya sakinləri üçün böyük maraq kəsb edib. Kriketin T-20 üzrə yarışlarında 30-40 minə yaxın fanat ordusu iştirak edir. Adı çəkilən ölkələrdə ən yaxşı kriketçilər azarkeşlər və ölkə əhalisi tərəfindən sevilir, kumirə çevirilirlər.

**3. Böyük tennis**

Stolüstü tennisdən danışarkən biz böyük tennisi qeyd etmədik. Amma tennisin bu növü miqyasına və azarkeş rəğbətinə görə stolüstü tennisi xeyli qabaqlayır. Təkcə dünyada 1 milyarda yaxın azarkeşi olan böyük tennis üzrə keçirilən yarışlar geniş auditoriyaya malikdir. Bu idman növü üzrə təşkil olunan müxtəlif turnirlər televiziyalara böyük vəsait qazandırır. Böyük tennisdə məşhurlaşan idmançıların sorağı ən yüksək tədbirlərdən gəlir. Avstraliya, ABŞ, Rusiya və digər ölkələrdən olan tennisçilər qazandıqları pullara görə varlı idmançıların reytinqində ilk 5-likdə yer alırlar. Bu gün israrla deməк olar ki, böyük tennis yarandığı gündən öz nüfuzunu və azarkeş rəğbətini qoruya bilir.

**4. Voleybol**

Siyahıda özünəməxsus yeri olan voleybol idman növləri arasında populyarlığını qoruyur. Təxminən 900 milyon azarkeşi olan voleybol yarışları daim maraqla qarşılanır. Dünya, Avropa, Qran-pri turnirlərini buna misal göstərmək olar. Təxminən planetin 100-dən artıq ölkəsində voleybol yarışları yüksək səviyyədə təşkil olunur. Onu da qeyd edək ki, voleybolun çimərlik növü də idman yarışlarına rəng qatır.



**5. Beysbol**

Bu idman növü dünyada fərqli baxışlara malikdir. Bir çoxları beysbolun çətin və maraqsız olduğunu düşünürlər. Lakin əslində bu belə deyil. Amerikada böyük azarkeşi olan beysbol Yaponiya və Tayvanda da sevilir. Qeydə alınan rəqəmlərə görə dünyanın 11 fərqli ölkəsində 600 milyon insan beysbol yarışlarını həyəcanla izləyir. Bundan əlavə beysbolda ulduzu parlayan idmançılar ən varlı atletlərin siyahısında da öz mövqelərini qoruya bilirlər.



**6. Basketbol**

Bir çox idmansevərin fikrincə, basketbol bir həyat tərzidir. Amerika basketbolu dünyada böyük maraq kəsb edir. ABŞ basketbolçuları dünyanın ən populyar idmançılarından sayılırlar. Onların adları idman sahəsində "top-10"luqda çəkilir. KİV-lərdə yer alan hər 5 xəbərdən 2-si basketbolla bağlıdır. Yeri gəlmişkən qeyd edək ki, hər gənc basketbolçunun ən böyük arzusu Milli Basketbol Assosiasiyasının (MBA) müntəzəm çempionatında oynamaqdır. Hesablamalara görə, dünyada 500 milyona yaxın basketbol azarkeşi var.



**7. Hokkey**

Qış idman növləri arasında ilk pillədə olan hokkey deyəndə, ilk olaraq Kanada yada düşür. Kanada hokkeyçilərinin əsas rəqibləri isə ABŞ və Rusiya millisi sayılır. Buz üzərində keçirilən yarışları planetin milyarda yaxın sakini sevir və izləyir. Məlumdur ki, hokkey təkcə buz üzərində oynanılmır. Ot üzərində və aero hokkey növü də kifayət qədər marağa səbəb olub.

**8. Stolüstü tennis**

Bu idman növü həm maraq, həm də populyarlıq baxımından digər növlərdən fərqlənmir. Stolüstü tennis daha çox sürətinə görə seçilir. Belə ki, yeniyetmə və gənclər arasında sevilən stolüstü tennis 300 milyon azarkeşi öz ətrafında birləşdirib. ABŞ-da geniş yayılmasına baxmayaraq, Asiya, xüsusilə Çin idmançıları dünyada liderlik edirlər. Belə ki, Olimpiya oyunlarının proqramına salınan stolüstü tennisdə mübarizə aparan komandaların əksər üzvləri asiyalı idmançıları sayılır.

**9. Reqbi**

Qolfdan sonra daha böyük azarkeşi olan idman növlərindən biri də reqbi sayılır. Aparılan son araşdırmalara görə, dünyada 200 milyona qədər reqbi sevər var. Reqbi daha çox Şimali Amerikada vüsət alıb. Bundan başqa Yeni Zelandiya, Avstraliya və Argentinada reqbi yarışlarına böyük maraq göstərilir. Məlumat üçün bildirək ki, reqbinin 2 növü var: reqbi-liq (reqbi-13) və reqbi-yunion (reqbi-15). Maraqlıdır ki, bu idman növü Böyük Britaniyada yaransa da, ingiltərəli reqbiçilər elə bir ciddi uğur əldə etməyiblər.

**10. Qolf**

Ən çox azarkeş kütləsinə malik olan idman növləri arasında qolf ilk onluqda onuncu pillədə qərarlaşıb. Qolf qısa müddət ərzində dünyada böyük nüfuz qazanıb. Hazırda dünyada 600 milyon idmansevər qolf yarışlarını yaxından izləyir. Qolf eyni zamanda ən qədim və ən bahalı idman növü sayılır. Bu idman növü üçün vacib sayılan yaşıl meydanların özü belə böyük maliyə tələb edir. Qolf deyəndə təbii ki, ilk olaraq Tayqer Vuds kimi güclü və varlı idmançı yada düşür.




*Anar Əhmədov*

---

## Dünya çempionları dopinq-testdən keçə bilməyiblər

Ağırlıqqaldırma üzrə 2018-ci ilin tailandlı üç dünya çempionu dopinq-testdən keçə bilməyib. Bu məlumatı Beynəlxalq Ağır Atletika Federasiyasının mətbuat xidməti yayıb. Məlumatda qeyd olunub ki, hər üç idmançı antidopinq qaydalarının pozulmasında şübhəli bilinərək müvəqqəti olaraq yarışlardan kənarlaşdırılıb. Dopinq nümunələri Aşqabadda keçirilən dünya çempionatında götürülüb. Sukaniya Srisurat, Sopita Tanasan və Txunya Sukxaroen həmin çempionatda müvafiq olaraq 55, 49 və 45 kiloqram çəki dərəcələrində qızıl medal qazanıblar. Antidopinq qaydalarını pozan daha bir idmançı - Çitçanok Pulsabakul isə dünya çempionatında 87 kiloqram çəki dərəcəsində altıncı yeri tutub. Sukaniya Srisurat həm də 2016-cı il Olimpiya Oyunlarının çempionu və 2017-ci il Universiadasının gümüş mükafatçısıdır. Sopita Tanasan da Rio de Janeyroda keçirilən Olimpiadada qızıl medalın sahibi və 2018-ci il dünya çempionatının qalibidir. Çitçanok Pulsabakul isə dünya çempionatlarında iki dəfə bürünc medal qazanıb. Txunya Sukxaroen 2017-ci il dünya çempionatının gümüş mükafatçısı olub.

## İsveçdə milli idman mükafatının təqdimat mərasimi keçirilib

İsveçin paytaxtı Stokholmda nüfuzlu milli idman mükafatı - "Svenska Idrottsgalan"ın təqdimat mərasimi keçirilib. Biatlonçu Hanna Eberq ötən ilki uğurlu çıxışına görə mükafata layiq görülüb. H.Eberq Pxençxan-2018 Qış Paralimpiya Oyunlarında fərdi yarışlarda qızıl, estafet mübarizəsində isə gümüş medal qazanıb. Ötən ilin ən yaxşı komandası adına kişi biatlonçulardan ibarət İsveç yığması sahib olub. Belə ki, Peppe Femlinq, Yesper Nelin, Sebastian Samuelsson və Fredrik Lindstremdən ibarət milli komanda Qış Olimpiadasının estafet yarışlarında birinci yeri tutub.

İlin ən yaxşı qadın idmançısı adına üzgüçü Sara Şestrem sahib olub. Üzgüçü Qlazqoda təşkil olunan Avropa çempionatında fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Ən yaxşı kişi əidmançı isə şüvüllə tullanan Arman Dyuplantis seçilib. Atlet Berlində keçirilən Avropa çempionatının qızıl medalını qazanıb.

## Atletika üzrə Dünya Qış Turuna start veriləcək

Yanvarın 26-da ABŞ-ın Bostan şəhərində atletika üzrə Dünya Qış Turuna start veriləcək. 6 mərhələdən ibarət yarış Bostanla yanaşı, Karlsrue (Almaniya), Torun (Polşa), Madrid (İspaniya), Birmingem (İngiltərə) və Düsseldorfda (Almaniya) təşkil olunacaq. Turun qalibi fevralın 20-də Düsseldorfdakı final mərhələsində məlum olacaq və qaliblər pul mükafatı ilə yanaşı, 2020-ci ildə Çinin Nankin şəhərində keçiriləcək dünya çempionatına ilk "vayld-kart" əldə edəcəklər.

Yarışda kişilər 5, qadınlar isə 6 növdə birincilik uğrunda mübarizə aparacaqlar.

# Polis əməkdaşları arasında silahsız özünümüdafiə üzrə yarış keçirilib

Daxili İşlər Nazirliyinin (DİN) İdman Cəmiyyətində polis əməkdaşları arasında silahsız özünümüdafiə üzrə çempionat keçirilib.

Yarışın açılış mərasimində çıxış edən Olimpiya, dünya və Avropa çempionu, DİN İdman Cəmiyyətinin sədri, polis polkovniki Zemfira Meftaxetdinova şəxsi heyətin fiziki hazırlığının daha da artırılması, silahsız özünümüdafiə fənlərinə daha yaxşı yiyələnmələri məqsədilə keçirilən yarışın əhəmiyyətini vurğulayıb. O, Azərbaycanın dünyada güclü idman ölkəsi kimi tanınmasında beynəlxalq miqyasda uğurlar qazanan daxili işlər orqanları əməkdaşlarının da əməyini qeyd edib. 2018-ci ilin idman yekunlarına həsr olunan tədbirdə dövlətimizin başçısı tərəfindən təltif edilənlər arasında polis əməkdaşlarının və cəmiyyətin yetirmələrinin olmasını xüsusi vurğulayan Zemfira Meftaxetdinova bunu polis idmançılarının əməyinə verilən layiqli qiymət kimi dəyərləndirib.



Yarışda Bakı ilə yanaşı, respublikanın Gəncə və Sumqayıt şəhər, rayon polis baş idarə və şöbələrinin, Daxili Qoşunların baş idarəsinin, nizami hissə və tədris müəssisələrinin əməkdaşları bacarıqlarını nümayiş etdiriblər. On bir komandanın heyətində 90-dək əməkdaşın iştirak etdiyi yarışda ilk üçlükdə Əlahiddə Çevik Polis Alayının, DİN Daxili Qoşunlarının baş idarəsinin və Sumqayıt Şəhər Polis İdarəsinin komandaları qərarlaşıb.

Yarışların idarə olunmasında polis polkovnik-leytenantları Elnur Həsənov, Oruc Munirov, Mahir Əhmədov, Seymur Qurbanbəyov, polis mayoru Zaur Məcidov, polis kapitanları Aydın Həşimov, Dəyanət Ağayev, əməkdar məşqçilər Hikmət Hacıyev və Rəsul Məmmədov iştirak ediblər.

Mükafatlandırma mərasimində çıxış edən DİN İdman Cəmiyyətinin idmanın təşkili bölməsinin rəisi, polis polkovnik-leytenantı Mülayim Xıdırov əməkdaşların hazırlıq səviyyəsinin yüksək olmasını, polis idmançılarımızın təcrübələrini ildən-ilə artırdıqlarını diqqətə çatdırıb. M.Xıdırov paytaxtla yanaşı, bölgələrdə də ərazi polis orqanlarının şəxsi heyəti ilə mütəmadi qaydada aparılan fiziki hazırlıq məşğələlərinin səmərəliliyinin artırılmasını, əməkdaşların silahsız özünümüdafiə fəndlərinə daha yaxşı yiyələnmələrinin daim diqqət mərkəzində saxlanıldığını deyib.

# Fyodor Yemelyanenko karyerasını başa vurmağı planlaşdırır



*Qarışıq döyüş növləri (MMA) üzrə əfsanəvi boksçu Fyodor Yemelyanenko aldığı zədələr və yaşı ilə əlaqədar karyerasını başa vurmağı düşünür.*

42 yaşlı idmançı bu barədə qərarını amerikalı boksçu Rayan Beyder ilə qarşılaşma ərəfəsində açıqlayıb.

"Karyeramı başa vurmaq barədə indi daha çox düşünməyə başlamışam. Bu qərara gəlməyimin səbəbi döyüşmək istəməməyim deyil. Sadəcə yaşım və zədələr artıq özünü göstərir", - deyə o, bildirib.

Qeyd edək ki, F.Yemelyanenko karyerası ərzində 38 döyüşdə qələbə qazanıb, beş görüşdə məğlub olub. R.Beyder isə qarşılaşmalarda 26 dəfə qalib gəlib, 5 dəfə məğlubiyyətə uğrayıb. Boksçular arasında final qarşılaşması yanvarın 27-də Los-Ancelesdə keçiriləcək.

# *Bakı birinciliyinin qalibləri müəyyənləşib*

Şotokan karate-do üzrə Bakı birinciliyi keçirilib. Yarışda 133 idmançı birincilik uğrunda mübarizə aparıb.

Yarışın nəticələrinə görə, 10-11 yaş qrupunda Rəşid Məstəliyev, Ayxan Mollayev, İsmayıl Nəzərov, Fərəc Əliyev, 12-13 yaşlılar arasında Fariz Şahbazov, Rəsul Abbasov, Məhəmməd Xamoyev, Əli Hacıyev, 14-15 yaşlı karateçilərin mübarizəsində Oruc Süleymanlı, Hüseyn Məmmədli, Azər Tapdıqlı, İsmayıl Məhəbbətli, Osman Osmanov, 16-17 yaşlılar arasında isə Rüfət İskəndərov, Nuran Rzazadə, Məhəmməd Məmmədov, Fərid Şahbazlı və Musa Sarıyev fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Yarışda ilk üç yeri tutan idmançılar BŞGİBİ tərəfindən müvafiq dərəcəli diplom və xatirə hədiyyələri ilə təltif olunublar.

# Formula-1

## "McLaren" bolidi yenə narıncı rəngdə olacaq

Formula-1 "McLaren" komandası MCL34 yeni bolidi üzərində işləri davam etdirir. Artıq maşın kraş-testlərdən keçib. Bolidin təqdimatı isə fevralın 14-də olacaq.

Bolidin dizaynında narıncı rəng qorunub saxlanılacaq. Komanda cari mövsüm ərəfəsində bu rəngə qayıtmağı qərara alıb.

Xatırladaq ki, "McLaren" hər iki pilotunu dəyişəcək. Ötən mövsümdə komandada çıxış etmiş Fernando Alonso və Stoffel Vandornun yerinə Karlos Sayns və Lando Norris trasa çıxacaqlar. Uokinqdən olan bu komanda Konstruktorlar Kubokunun keçən mövsümünü altıncı yerdə başa vurub. Belə ki, 62 xal toplayan "McLaren" beşinci yerin sahibi "Haas" komandasından 29 xal geridə qalıb.

* * *

"Haas" Formula-1 komandasının üzvü Kevin Maqnussen Danimarkada 2018-ci ilin ən yaxşı sürücüsü seçilib.

Pilota mükafat "Danish Motorsport Awards"ın təqdimatı zamanı verilib. K.Maqnussen üçüncü dəfədir bu mükafata sahib olur. Pilot ötən mövsüm Formula-1 dünya çempionatında 56 xalla ümumi sıralamada doqquzuncu olmuşdu.

* * *

Böyük Britaniyanın "Sky Sports" telekanalı Formula-1 yarışlarının yeni mövsümünün ilk test sessiyasını canlı yayımlayacaq.

Telekanal fevralın 18-dən 21-dək Barselonadakı trasda keçiriləcək ilk sessiyanın hər dörd test gününün ikinci hissəsini nümayiş etdirəcək.

Bununla yanaşı, translyasiyalarda xüsusi qonaqlar, komanda rəhbərlərinin, pilotların iştirakı da gözlənilir. Onlar baş verənlərə öz münasibətlərini tamaşaçılarla bölüşəcəklər. Bundan başqa, hər gün sessiya başa çatdıqdan sonra bir saatlıq icmallar efirdə gedəcək. Belə ki, "Sky Sports" Formula-1-ə dörd test günü üçün 20 saat efir vaxtı sərf edəcək.

İkinci testlərə aid planlar barədə məlumat verilmir.

* * *

Formula-1 çempionatı gələn mövsümdə İspaniyanın " The Dream VR" şirkəti ilə birlikdə görüntü bucağı 360 dərəcə olan videohostinq təklif edəcək. Videokanal smart-televizorlar üçün əlavədə öz meydanındakı start düzülüşünün, podiumun və ən yaxşı dövrənin maraqlı təsvirlərini 360 dərəcə görüntü bucağı ilə təqdim edəcək.

"The Dream VR" istifadəçiləri ötən il britaniyalı pilot Lyuis Hemiltonun beşinci dünya çempionu titulunun bayram edildiyi Meksika Qran Prisinin səhnələrinə və Əbu-Dabi Qran Prisinin təsvirlərinə artıq baxıblar.

İspaniya mənşəli Albert Palay və Pablo İnnoba tərəfindən yaradılmış, mərkəzi ofisi Mayamidə yerləşən, lakin Barselonada ofisləri olan "The Dream VR" şirkəti yazılmış videoya 360 dərəcə görüntü bucağı texnologiyası ilə baxma sistemini təklif edib. Bu sistem televizor, mobil qurğu və virtual reallıq eynəkləri ilə uyğunlaşa bilir.

A.Palay deyib: "Formula 1 kimi avtomobil idmanı üzrə ən populyar və nüfuzlu dünya çempionatı ilə birlikdə işləmək imkanı bizim üçün xoşdur. Lakin ilk növbədə fanatları interaktiv tamaşaçıya çevirməklə, onların Formula 1 yarışlarına baxmasına kömək etmək xoşdur".

EFE informasiya agentliyinin mənbələrinə görə, bu əlavənin 140 ölkədə 3,15 milyon istifadəçisi var ki, onların da 800 mini İspaniyadadır.

* * *

"Mersedes" komandasının pilotu Luis Hamilton hesab edir ki, "Red Bull"un yürüşçüsü Maks Ferstappen Formula-1 yarışmasının 2019-cu il mövsümündə çempionluq uğrunda rəqabət aparmaq üçün tam təkmilləşib.

L.Hamilton deyib: "Maks ötən il ərzində stabillik göstərərək çox yaxşı çıxış edib. O, dəfələrlə bizimlə daban-dabana mübarizə aparıb, buna görə də əgər onun komandası öz vəzifəsinin öhdəsindən gələrsə və bizimlə daha güclü rəqabət apara biləcək platforma təqdim edərsə, o zaman əlbəttə ki, o, titul uğrunda mübarizəyə qoşulacaq".

"Ferrari"nin pilotu Sebastyan Fettel "Mersedes"in britaniyalı yürüşçüsünün fikri ilə həmrəydir.

"Fikrimcə, Ferstappenin bundan ötrü bütün imkanları var. Bu keyfiyyətlərə malik olan bir-iki nəfər var. Heç şübhəsiz ki, Maks onlardan biridir", - deyə "Sports Mole" S.Fetteldən sitat gətirir.

* * *

"Ferrari" yürüş akademiyasının rəhbərliyi öz pilotlarının qarşıdakı mövsüm üçün planları barədə danışıb. Burada təsdiq ediblər ki, Avropa Formula-3 seriyasının çempionu, akademiyaya yeni seçilmiş Mik Şumaxer Formula-2-də iştirak edəcək. Bu seriyada Mik Şumaxerlə bərabər Culiano Alezi və Kallum Aylott da mübarizə aparacaqlar.

"Ferrari" Formula-3-də özünün iki yetirməsi - Robert Şvartsman və Markus Armstronq ilə təmsil olunacaq.

Xatırladaq ki, bu, tarixdə ilk Formula-3 mövsümü olacaq. Bu seriya Avropa Formula-3 seriyası ilə GP3-ün birləşməsi nəticəsində yaranıb.

Gənclər proqramının digər pilotlarına gəldikdə, Entso Fittipaldi yeniyetmələrin regional seriyalarında, Canluka Petekof isə Formula 4-də iştirak edəcək.



# FUTBOL

## Lisenziyalaşdırma qrupunun fəaliyyəti UEFA-nın keyfiyyət standartlarına uyğundur

İsveçrənin SGS şirkəti 2018-ci ildə AFFA-nın Lisenziyalaşdırma qrupunun fəaliyyəti ilə bağlı apardığı yoxlamanın nəticələrini açıqlayıb.

Şirkət tərəfindən AFFA-ya ünvanlanmış təbrik məktubunda AFFA-nın Lisenziyalaşdırma qrupunun fəaliyyətinin UEFA-nın Klubların Lisenziyalaşdırma üzrə keyfiyyət standartlarına uyğun olduğu qeyd olunub. Həmçinin Lisenziyalaşdırma qrupunun 2019-2020-ci il lisenziyalaşdırma mövsümü çərçivəsində Azərbaycan klublarının UEFA yarışlarında iştirakı ilə bağlı lisenziyalaşdırma prosesini həyata keçirmək hüququna malik olduğu bildirilib.

Qeyd edək ki, SGS şirkəti müvafiq yoxlamaları UEFA-nın sifarişi əsasında həyata keçirir.

## "Biz FİFA və UEFA ilə əməkdaşlığa böyük ümidlər bəsləyirik"

Rusiya Futbol İttifaqının (RFİ) prezidenti vəzifəsinə namizəd Aleksandr Dyukov Beynəlxalq Futbol Federasiyaları Assosiasiyası (FIFA) və Avropa Futbol Federasiyaları Assosiasiyası (UEFA) ilə məhsuldar əməkdaşlığa ümid edir.

Bu barədə A.Dyukov Xabarovskda Uzaq Şərq regional futbol federasiyalarının rəhbərləri ilə görüşdən sonra jurnalistlərə bildirib.

Sankt-Peterburqun "Zenit" klubunun direktorlar şurasının sədri, "Qazprom neft" şirkətinin başçısı Aleksandr Dyukov RFİ rəhbərliyinə yeganə namizəddir. Seçkilərdə iştirakla əlaqədar müraciətlərin qəbulu yanvarın 13-də, namizədlərin qeydiyyat proseduru isə yanvarın 16-da başa çatıb.

"Əgər biz inkişafdan, hansısa dəyişikliklərdən danışırıqsa, o zaman bu məsələlərin öhdəsindən gələ bilən əlavə işçi qüvvəsi lazımdır. Bu məsələlərə əlavə maliyyə lazımdır, biz onların üzərində də işləyəcəyik. Əgər mənbələrdən söhbət gedirsə, biz FİFA və UEFA ilə əməkdaşlığa böyük ümidlər bəsləyirik. Biz, həmçinin sponsorlar ilə işləri fəallaşdırmağı planlaşdırırıq. Müəyyən razılaşmalar var və sponsorlardan RFİ-yə əlavə daxilolmaların miqdarının artacağına ümid bəsləyirik", - deyə A.Dyukov bildirib.

O, 2018-ci il dünya çempionatının Rusiyada futbolun inkişaf perspektivləri üçün əhəmiyyətini qeyd edib. A.Dyukov deyib: "Dünya birinciliyi bizə təkcə yığmamızın gözəl çıxışlarını bəxş etmədi, həm də futbolun Rusiyada əsas idman növü olmasını təsdiqlədi. Ən yaxşı, rahat arenalar tikildi ki, bu da yekunda futbolumuzun inkişafına güclü təkan verir. Bizim birinci dərəcəli vəzifəmiz bu hərəkatı və irsi qoruyub saxlamaqdır".

"Lap bu yaxınlarda qəbul edilən 2030-cu ilədək futbolun inkişafı strategiyası var. Ola bilər ki, bu, ideal sənəd deyil, lakin bu ehkam deyil və bizim bu sənədə təkrar nəzər yetirmək və aktuallaşdırmaq hüququmuz var. Bu sənədə daxil edilən tədbirlər düzgün seçilib, sadəcə onları həyata keçirmək lazımdır. Bütün bunlar üçün isə idarəetmə resursu lazımdır və müvafiq qərar qəbul olunacaq", - deyə A.Dyukov yekunlaşdırıb.

RFİ-nin fevralın 22-də təşkil olunacaq hesabat-seçki konfransında təşkilatın rəhbərliyinə seçkilər keçiriləcək.

## Bekhem "Salford Siti" futbol klubunun səhmlərini alıb

İngiltərə millisinin sabiq kapitanı Devid Bekhem ölkə çempionatının beşinci divizionunda çıxış edən "Salford Siti" klubunun səhmlərini alıb.



"Salford Siti"nin səhmlərinin əlli faizini 2014-cü ildə "Mançester Yunayted" klubunun sabiq futbolçuları Pol Skoulz, Rayan Giqz, Fil Nevil, Qary Nevil və Niki But (hər biri 10 faiz) əldə ediblər. Qalan hissələr isə İspaniyanın "Valensiya" klubunun sahibi olan sinqapurlu milyarder Peter Limə məxsusdur. Devid Bekhem "Salford Siti"nin səhmlərinin 10 faizini Peter Limdən aldığını bildirib. Beləliklə, ingilis futbolçuları klub idarəçiliyində nəzarəti ələ alıblar.

"Salford Siti" klubu 1940-cı ildə Mançester şəhərinin ətrafında yaradılıb. Klub uzun illər İngiltərə çempionatının səkkizinci və doqquzuncu divizionlarında oynayıb. Klub 2014-2015-ci illər mövsümündə yeddinci, 2015-2016-cı illərdə altıncı, 2016-2017-ci illərdə isə beşinci diviziona yüksəlib. Hazırda "Salford Siti" beşinci divizionda 30 oyundan sonra 56 xalla 3-cü yerdə qərarlaşıb.

Məlumat üçün qeyd edək ki, Devid Bekhemin futbolçu karyerası 1993-cü ildən 2013-cü ilədək davam edib. Yarımmüdafiəçi karyerası ərzində İngiltərənin "Mançester Yunayted", İspaniyanın "Real Madrid", ABŞ-ın "Los Anceles", İtaliyanın "Milan" və Fransanın PSJ klublarının heyətində mübarizə aparıb. Futbolçu İngiltərə millisinin heyətində keçirdiyi 115 oyunda 17 dəfə rəqib qapısına yol tapıb.

Qeyd edək ki, 2014-cü ildə Bekhem ABŞ-ın "İnter Mayami" klubunu alıb. "İnter Mayami" 2020-ci ildə, MLS çempionatında iştirak edəcək.




## "Neftçi" və "Bursaspor" klubları arasında əməkdaşlıq müqaviləsi imzalanıb

Bakının "Neftçi" futbol klubu ilə Türkiyənin "Bursaspor" komandası arasında qardaşlıq və strateji əməkdaşlıq müqaviləsi imzalanıb.

Tədbir Türkiyə təmsilçisinin Özlüce İbrahim Yazıcı Təsislərində təşkil olunub. Mərasimdə Bursa klubunun prezidenti Əli Ay, prezidentin müşaviri Cem Öztürk, "Neftçi" klubunun prezidenti Kamran Quliyev və vitse-prezidenti Elnur Eyvazov iştirak ediblər.

Strateji əməkdaşlıq müqaviləsinin imzalandığı mərasimdə "Bursaspor"un prezidenti Əli Ay deyib: "Neftçi" Azərbaycan futbolunun əsas klublarından biridir. Çoxdandır, klub rəsmiləri ilə əməkdaşlıq etməyi planlaşdırırdıq. Bakı klubunun rəsmiləri "Fənərbağça" ilə oyunumuzda qonaq oldular. Yalnız idmanda deyil, hər sahədə əməkdaşlıq edəcəyik. Reklam, media, fanşop və skaut məsələlərində fikir mübadiləsi aparıb, ortaq layihələr həyata keçirəcəyik. Ümid edirəm ki, bu əməkdaşlıq hamımız üçün uğurlu olacaq".

"Bu, bizim üçün qürur anıdır", - deyən "Neftçi"nin prezidenti K.Quliyev bildirib ki, "Bursaspor" klubunun rəhbərliyinə və İdarə Heyətinin üzvlərinə təşəkkürümü bildirirəm. "Neftçi" Azərbaycanın ən böyük və ən tarixi klubudur. Komandamız Sovet İttifaqı dağıldıqdan sonra 8 dəfə çempion olub. "Bursaspor"un güclü azarkeşi var. Gələcəkdə birlikdə çox işimiz olacaq. Sizi tez bir zamanda Bakıda görmək istəyirik".

## Qış çempionu növbəti yoxlama oyununda gücünü sınayıb

Türkiyədə təlim-məşq toplanışını davam etdirən "Neftçi" komandası yanvarın 23-də növbəti yoxlama oyununu keçirib. Rəqib Çexiyanın "Slovan" kollektivi olub. "Arslan Zeki Demirci" İdman Kompleksində keçirilən görüş Liberets təmsilçisinin qələbəsi ilə yekunlaşıb - 2:1.

Hesabı 21-ci dəqiqədə Baqali Dabonun ötürməsindən sonra Mirabdulla Abbasov açıb. Lakin 36-cı dəqiqədə Matey Hibş hesabı bərabərləşdirib, 46-cı dəqiqədə isə Yan Mikula "Neftçi" müdafiəçilərinin səhvindən yararlanaraq komandasının qələbə topunu vurub.

Qeyd edək ki, bu, "Neftçi"nin ikinci yoxlama oyunu olub. Flaqman ilk görüşündə Rumıniya "Qaz-Metan" klubuna böyük hesabla qalib gəlib - 3:0. Hazırda "Slovan" Çexiya çempionatında 19 oyundan 25 xalla 7-ci pillədə qərarlaşıb.

## Baş hakim qərar vermək üçün 8 dəqiqə videotəkrarı izlədi

Meksikada futbol üzrə ölkə çempionatında "Qvadalaxara" və "Toluka" komandaları arasında keçirilən oyunda qeyri-adi hadisə baş verib. Oyunun hakimi 80-ci dəqiqədə qonaq komandanın futbolçusunun zərbəsindən sonra topun qapı xəttindən içəri daxil olub-olmadığını müəyyənləşdirmək üçün VAR sisteminə müraciət etməli olub. VAR sistemindən istifadə edən baş hakim doğru qərar vermək üçün epizodun videotəkrarına 8 dəqiqə baxdıqdan sonra qolu qeydə almayıb. Qarşılaşma "Qvadalaxara"nın 1:0 hesablı qələbəsi ilə başa çatıb.

Qeyd edək ki, Meksika çempionatında VAR sistemi ötən ilin oktyabrından tətbiq edilir.

## İldırım düşməsi nəticəsində 4 futbolçu dünyasını dəyişdi

Burundidə keçirilən futbol oyunu zamanı ölüm hadisəsi qeydə alınıb.

"Kiremba" və "Maranqara" komandaları arasında keçirilən yoldaşlıq oyununda stadiona ildırım düşüb. İldırım çaxması zamanı 6 futbolçu xəsarət alıb. Futbolçulardan ikisi yerindəcə, ikisi isə xəstəxanada dünyasını dəyişib. İki futbolçunun vəziyyəti isə ağırdır.

## Transfer xəbərləri

"Çelsi"nin yarımmüdafiəçisi Eden Hazard karyerasını "Real"da davam etdirəcək. Belçikalı futbolçu "kral klubu" ilə 5 illik müqaviləyə imza




atıb. Madridlilərlə şəxsi müqaviləni razılaşdıran 28 yaşlı oyunçu İspaniyada illik 13 milyon avro qazanacaq. Əgər "Real" mövsümün sonunda La Liqa və Çempionlar Liqasında qalib olarsa, Hazard əlavə 2,5 milyon bonus əldə edəcək. Bundan başqa, "Qızıl top"u qazanacağı təqdirdə Edenə daha 1 milyon avro ödəniləcək.

* * *

"Barselona" "Ayaks"ın yarımmüdafiəçisi Frenki de Yonqla hərtərəfli razılığa gəlib. Bu transfer üçün kataloniya




təmsilçisi Hollandiya klubuna 90 milyon avro ödəyəcək. Qeyd edək ki, 21 yaşlı futbolçu ilə "Bavariya" və "Mançester Siti" də maraqlanırdı.

* * *

"Sassuolo"nun futbolçusu Kevin-Prins Boatenqin "Barselona"ya keçidi




rəsmiləşib. Qanalı yarımmüdafiəçi cari mövsümün sonuna kimi icarə əsasında Kataloniya təmsilçisində çıxış edəcək. İspaniya mətbuatı La Liqa klubunun 2 milyon avro icarə haqqı ödəyəcəyini yazıb.

* * *

İcarə əsasında "Milan"da çıxış edən, müqavilə ilə isə "Yuventus"a məxsus olan Qonzalo İquain "Çelsi" ilə razılığa gəlib. Argentinalı futbolçu "Çelsi"də cari mövsümün sonuna kimi icarədə olacaq və "zadəganlar" "Yuventus"a 9 milyon avro icarə haqqı ödəyəcək.

* * *

"Nitsa"nın hücumçusu Mario Balotellinin "Marsel"ə keçidi reallaşıb. İtaliyalı futbolçu həkim müayinəsindən keçdikdən sonra "Marsel"lə müqavilə imzalayıb. Onun razılığı 6 ayı əhatə edəcək.

* * *

Türkiyənin "Başakşəhər" klubu daha bir məşhur futbolçunu heyətinə



cəlb edib. Superliqa təmsilçisi Çinin "Şanxay Şenhua" klubunda çıxış edən Demba Banı komandaya transfer edib. İstanbul klubu seneqallı forvardla müqavilə şərtlərini açıqlamayıb.

* * *

PSJ "Everton"un futbolçusu İdrissa Qeyeni transfer etmək istəyir. Paris klubu seneqallı yarımmüdafiəçi üçün




25 milyon avro təklif edib. Qeyd edək ki, İ.Qeye cari mövsüm İngiltərə Premyer Liqasında 20 matçda oynayıb.

* * *

"Los Anceles Qalaksi"dən ayrılan Eşli Koulun "Derbi Kaunti"yə keçidi rəsmiləşib. 38 yaşlı müdafiəçi ilə mövsümün sonuna qədər müqavilə imzalanıb.

Xatırladaq ki, Çempionşipdə mübarizə aparan "Derbi Kaunti"ni Frenk Lempard çalışdırır.



# Dünya idmanı

## Mik Şumaxer atasının yolunu davam edir

İtaliyanın “Ferrari” komandasının rəhbərliyi yeddiqat dünya çempionu Mixael Şumaxerin oğlu Mik ilə müqavilə imzalayıb. O, “Skuderiya” yürüş akademiyasının pilotu seçilib.

Mik Şumaxer ötən mövsümdə Avropa Formula-3 yarışlarının qalibi olub, 2019-cu ildə isə Formula-2 yarışlarında çıxış edəcək.




“Ferrari” komandasının rəhbəri Mattia Binotto deyib: “Miki doğulduğu gündən tanıyan mənim kimi insanlar üçün aydın idi ki, Şumaxerin “Ferrari”yə dəvət edilməsi emosional məqamdır. Lakin biz onu, gənc olmasına baxmayaraq artıq aşkar görünən istedadına, habelə peşəkar və insani keyfiyyətlərinə görə seçmişik”.

“Ferrari” yürüş akademiyasının üzvləri arasında Kaylum Aylott, Markus Armstronq, Robert Şvartsman, Cüliano Alezi, Entso Fittipaldi və Canluka Petekov da var.

## “Australian Open-2019” turnirinin yarımfinalçıları müəyyənləşib



“Australian Open-2019” turnirinin kişilər və qadınlar arasında dördəbir final mərhələsinin sonuncu görüşləri keçirilib. Qeyd edək ki, ümumi mükafat fondu 44,5 milyon dollar olan “Australian Open” “Böyük dəbilqə” seriyasının 2019-cu il mövsümündəki ilk turniridir.

Beləliklə, serbiyalı tennisçi Novak Cokoviç Yaponiya təmsilçisi Key Nişikorini məğlub edərək yarımfinala vəsiqə əldə edib. Onun yarımfinaldakı rəqibi fransalı tennisçi Lukas Pouille olacaq. İspaniyalı Rafael Nadal isə növbəti mərhələdə Yunanıstan təmsilçisi Stefanos Tsıtsipasla qarşılaşacaq.

Qadınlar arasında “Australian Open-2019” turnirinin yarımfinal mərhələsinə isə vəsiqəni Naomi Osaka (Yaponiya) və Karolina Pliskova (Çexiya) qazanıblar. Naomi Osaka ukraynalı Elina Svetolinanı, Karolina Pliskova isə Serena Vilyamsı (ABŞ) məğlubiyyətə uğradıb. Beləliklə, qadınlar arasında “Australian Open-2019” turnirinin ilk yarımfinal mərhələsində Naomi Osaka və Karolona Pliskova mübarizə aparacaqlar.

Turnirə yanvarın 29-da yekun vurulacaq.

## Məşhur tennisçinin evini qarət etdilər

Məşhur amerikalı tennisçi Venus Vilyamsın evi qarət edilib. ABŞ-ın Florida ştatında yerləşən villanı ötən gün soyublar. Venusun 2.3 milyon dollara aldığı evin içərisindən 400 min dollar dəyərində əşya oğurlanıb. Hadisə ilə bağlı cinayət işi açılıb.

Qeyd edək ki, villası qarət olunan zaman Vilyams Nyu-Yorkda olub.

## Useyn Bolt futbolçu karyerasını bitirib

Atletika üzrə səkkizqat Olimpiya çempionu, məşhur sprinter Useyn Bolt futbolçu karyerasını bitirib. Avstraliyanın A liqasında çıxış edən “Sentral Kost Mariners” klubu ilə yoxlama oyununda qollar vuran Bolt peşəkar müqavilə imzalamaq üçün yaxşı təkliflər almadığı üçün bu qərarı verdiyini bildirib.

Bolt 2017-ci ilin sonunda atletika karyerasını bitirib və futbolla məşğul olmaq istəyib. Yamaykalı idmançı Pekin-2008, London-2012 və Rio-2016-da 100 və 200 metrə məsafəyə qaçış yarışlarında Olimpiya çempionu olmuş yeganə idmançıdır.

Qeyd edək ki, 2018-ci ilin avqustundan Avstraliya klubu ilə məşqlərə çıxan Bolt maliyyə məsələsində komanda ilə razılaşmadığı üçün “Sentral Kost Mariners”lə yollarını ayırıb.

## Rallinin meksikalı qalibi

Meksikalı ralliçi Benito Querra Çempionlar yürüşünün qalibi olub.

Querra Meksikada keçirilmiş yürüşün final yarışlarında “Le-Manın 24 saatı” turnirinin qalibi fransız Loik Dyüvalı geridə qoyub. Bir gün əvvəl isə Skandinaviya komandası “Le-Manın 24 saatı” turnirinin doqquzqat qalibi danimarkalı Tom Kristensenin və ralli-kross üzrə ikiqat dünya çempionu isveçli Yohan Kristofferssonun iştirakı ilə Millətlər Kubokunu qazanıb.

Hər il keçirilən beynəlxalq avtomobil yarışı olan çempionlar yürüşündə ən mötəbər seriyaların tanınmış yürüşçüləri iştirak edirlər. İlk yürüş 1988-ci ildə keçirilib. Şou iki hissədən - komanda və fərdi birincilikdən ibarətdir.




## 48 yaşlı idmançı olimpiadada iştirak edəcək

“Dakar” marafonunun 3 qat qalibi, Qətər idmançısı Nasser Əl-Əttiyə 2020-ci ildə Yaponiyanın Tokio şəhərində keçiriləcək XXXII Yay Olimpiya Oyunlarında iştirak etməyi planlaşdırır. 48 yaşlı idmançı Tokio-2020 Olimpiadasında atıcılıq üzrə yarışlarda qüvvəsini sınamaq fikrindədir.

Qeyd edək ki, Nasser Əl-Əttiyə indiyədək altı olimpiadada iştirak edib. O, London-2012 Olimpiadasının bürünc mükafatçısıdır.

## Dindarlar voleybol yarışında



Rusiyanın Penza vilayəti Qorodişen rayonu Orta Yeluzan kəndinin “Nur” İdman və istirahət kompleksində məscidlərin ibadətçiləri arasında voleybol üzrə növbəti kənd kuboku keçirilib.

Yarışma region müsəlmanlarının ruhani idarəsi tərəfindən təşkil edilib. Yarışa başlamazdan əvvəl oyunçuları rayonun icra başçısı Aleksandr Vodopyanov və müfti İslam-Həzrət Daşkin salamlayıb. Onlar kənddə voleybol ənənələrini qoruyan yarış iştirakçılarına minnətdarlıqlarını ifadə edib və voleybolçulara əzmkar və ədalətli mübarizə arzulayıblar.

Müsabiqənin nəticələrinə görə, 8 nömrəli məscid birinci yeri və qızıl medalı qazanıb. Gümüş medala 9 nömrəli məscid, bürünc mükafata isə “Əbu Hənifə” məscidi layiq görülüb.


## olimpnews.az - sizin saytınız





## Çempionlar



“Yuventus” komandasının və Portuqaliya yığmasının hücumçusu Kriştianu Ronaldu özünün “instagram” səhifəsində məşhur amerikalı boksçu Floyd Meyvezerlə birgə fotosunu yayıb. Futbolçu şəklə “Çempionlar!” şərhini yazıb.

İtaliya Superkuboku uğrunda “Milan”la (1:0) oyundakı qələbədən sonra Meyvezer “Yuventus”un soyunub-geyinmə otağına gəlib. Floyd turinliləri qələbə münasibətilə təbrik edib, komandanın bəzi oyunçuları və kubokla birgə şəkil çəkdirib.

İtaliya Superkuboku Ronaldu üçün “Yuventus”da qazandığı ilk qənimət olub. Portuqaliyalı 5 dəfə “Qızıl top” mükafatının, eyni sayda Çempionlar Liqasının qalibi olub. O, həmçinin Portuqaliya yığmasının tərkibində 2016-cı ildə Avropa çempionu adını qazanıb.

Floyd Meyvezer yarımorta çəkidə məğlubedilməz boksçudur.


Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.



E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54; 564-74-19



DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.